RƏSMİ DÖVLƏT QƏZETİ



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 197 (9076) ÇƏRŞƏNBƏ AXŞAMI, 13 sentyabr 2022-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az

## Böyük Britaniya və Şimali İrlandiyanın Kralı Əlahəzrət III Çarlza

Əlahəzrət!

Böyük Britaniya və Şimali İrlandiyanın Kralı kimi taxta çıxmağınız münasibətilə Sizi öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Azərbaycan ilə Birləşmiş Krallıq arasındakı ikitərəfli münasibətlərin hazırkı səviyyəsi məmnunluq doğurur. İnanıram ki, ölkələrimizi birləşdirən ənənəvi dostluq əlaqələri, müxtəlif sahələri əhatə edən qarşılıqlı faydalı əməkdaşlığımız xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da inkişaf edəcək və genişlənəcəkdir.

Bir daha Sizə təbriklərimi yetirir, möhkəm cansağlığı, xoşbəxtlik, Birləşmiş Krallığın dost xalqının rifahı naminə qarşıdakı ali dövləti fəaliyyətinizdə uğurlar arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 12 sentyabr 2022-ci il*

## Qarabağ və Şərqi Zəngəzurun "hava qapıları"

### Füzuli, Zəngilan və Laçın beynəlxalq aeroportlarının logistika, turizm və hərbi-strateji baxımdan böyük əhəmiyyəti var



Azad olunmuş ərazilərdə üç hava limanı da inşa edilməyə başlanıldı. Bunlardan biri artıq istifadəyə verilib, ikincisi, demək olar, hazırdır, digərində isə işlər gedir. İşğaldan azad olunmuş ərazilərdə hər üç hava limanının ümumi faydaları ilə yanaşı, hər birinin ayrılıqda önəmli statusları var. Ümumi fayda odur ki, hər üç hava limanı bu ərazilərin iqtisadiyyatının inkişafına, bərpasına öz töhfəsini verəcək. Hər biri həm daxili, həm xarici turizmin inkişafına kömək edəcək. Eyni zamanda Azərbaycanın bu mövqedə daha da güclənməsinə təkan verəcək.

→ 4

## Yeni tədris ilində 158 min 297 şagird birinci sinfə gedəcək

2022-2023-cü tədris ilində respublikanın ümumtəhsil müəssisələrində ümumilikdə 1 milyon 616 min 214 şagird təhsil alacaq.

Bu barədə AZƏRTAC-a Elm və Təhsil Nazirliyindən məlumat verilib. Bildirilib ki, ümumtəhsil məktəblərinin I sinfində 158 min 297, IX sinfində 147 min 29, XI sinfində isə 100 min 455 şagird təhsil alacaq.

## "İqlim fəlakəti"

### BMT-nin Baş katibi Antonio Quterreş beynəlxalq ictimaiyyəti Pakistana humanitar yardım göndərməyə çağırıb

İyunun ortalarından bəri Pakistanda rekord musson yağışlarının törətdiyi daşqınlar, sel və torpaq sürüşmələri 1400 nəfərin həyatına son qoyub. Özü də bu yalnız ilkin məlumatdır. Bundan əlavə, 12 mindən çox yaralı var. 1 milyon 700 mindən çox ev zədələnmiş və ya dağılmış, yüzlərlə kilometr yol su altında qalmış, əkin və mal-qara tələf olmuşdur. Təxminən 3,5 milyon uşaq təhsil ala bilmir. Yüzlərlə tədris müəssisəsində, o cümlədən ən azı 61 qaçqın məktəbində dərslər dayandırılıb.

→ 8

# Qafqazın həlledici gücü



İkinci Qarabağ müharibəsi yalnız Ermənistanın hərbi müstəvidə darmadağın edilməsi ilə nəticələnmədi. Azərbaycan bu qələbəsi ilə saxta erməni miflərini alt-üst etdi, dünya erməniliyinin onilliklər boyu bəşəriyyətə təqdim etdiyi stereotiplərin yalan olduğunu göstərdi. Bu baxımdan 44 günlük müharibə erməni cəmiyyətinin dirçəlişi mümkün olmayan mənəvi çöküşü kimi də yadda qaldı.

**"Dəmir yumruq" revanşistlərin niyyətlərini gözlərində qoyacaq**

Müharibənin başa çatmasından təxminən iki ilə yaxın vaxt ötür. Artıq Azərbaycanın haqq işini, beynəlxalq prinsiplərlə tanınmış hüquqlarını müharibə yolu ilə təmin etməsi bütün səviyyələrdə qəbul olunur. Başqa cür desək, bütün dünya, beynəlxalq təşkilatlar və dövlətlər bu müharibənin nəticələrini tanıyır, Azərbaycanın öz torpaqlarını azad etməsinə ehtiramla yanaşırlar. Müharibənin başa çatmasından sonrakı dövrün reallıqları göstərir ki, hətta erməni təəssübünü çəkən siyasi mərkəzlərin də 44 günlük savaşın nəticələrini qəbul etməkdən savayı başqa yolları yoxdur.

Lakin maraqlıdır ki, bu günün özündə də Ermənistanda saxta erməni təfəkküründən çıxış edənlər var. Beləlari hələ də beyinlərinə yeridilən saxta təxəyyüllərin reallaşacağına inanırlar. Amma onlar hələ də dərk edə bilmirlər ki, Ermənistanın işğalçılıq siyasətinə həmişəlik son qoyulub.

→ 5

## "Dəmir yumruğ"un "Qisas"ı davam edə bilər

### Ermənistan təxribatçı əməllərini dayandırmasa, aqibəti ağır olacaq



Düzü, Ermənistan hakimiyyətinin üzdə bir söz deyib, arxada başqa cür sərgilədiyi xain davranışını dünya necə adlandırır, bilmirik. Çünki dünya hər zaman olduğu kimi, ikili yanaşmasından əl çəkmir və yenə də bu ölkənin qanunsuz davranışlarına göz yumaraq inadla susur.

Amma dünya dilə gətirsə də, gətirməsə də, bu insanlıqdan uzaq davranışlar elə ermənilərin əsl simasının, faşist xislətlərinin bariz göstəricisidir.

→ 4

## Milli Məclisin Sədri Sahibə Qafarova Tacikistan Respublikasının Prezidenti ilə görüşüb

Sentyabrın 12-də Milli Məclisin Sədri Sahibə Qafarova Düşənbədə Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmonla görüşüb.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Tacikistan Prezidenti Emoməli Rəhmon Azərbaycan Milli Məclisinin Sədri Sahibə Qafarovanı salamlayaraq deyib ki, onun ölkəsi Azərbaycanla səmimi, dolğun və konstruktiv dövlətlərarası münasibətləri yüksək qiymətləndirir və bu münasibətlərin daha da möhkəmlənməsinə xüsusi diqqət yetirir. O, xalqlarımız arasındakı dostluq və əməkdaşlıq ənənələrindən, ölkələrimiz arasında yüksəksəviyyəli siyasi dialoqdan, parlamentlərarası əlaqələrdən, iqtisadi, mədəni-humanitar əməkdaşlığın genişləndirilməsindən danışıb.

Onun sözlərinə görə, bu gün Tacikistan-Azərbaycan əməkdaşlıq əlaqələri bir çox istiqamətlərdə inkişaf edir. Tacikistan Prezidenti ölkələrimizin BMT, ATƏT, MDB, İqtisadi Əməkdaşlıq Təşkilatı, İslam Əməkdaşlıq Təşkilatı və bir sıra digər beynəlxalq və regional təşkilatlarda uğurlu əməkdaşlığını qeyd edərək, qanunverici orqanlarımızın da beynəlxalq parlament təşkilatlarında səmərəli əməkdaşlığının dövlətlərimizin və xalqlarımızın maraqlarına uyğun olduğunu qeyd edib.

→ 3

## Ərzaq təhlükəsizliyinin təmin edilməsi strateji vəzifədir

Azərbaycanın özünü buğda ilə təminetmə əmsalı ilin əvvəlinə 62 faiz olmuşdur. Vəziyyəti daha da yaxşılaşdırmaq, ərzaqlıq buğdaya olan tələbatı müəyyən qədər ödəmək məqsədilə dövlət başçısı tərəfindən fərmanlar imzalanıb, göstərişlər əsasında xüsusi proqram hazırlanıb. Yaxın 3-4 il ərzində ölkəni ərzaqlıq buğda ilə 80 faiz təmin etmək başlıca vəzifə kimi qarşıya qoyulub. Bu çətin olsa da, ancaq məsuliyyətli və şərəfli bir vəzifədir.

Prezident İlham Əliyevin bu ilin iyul ayında imzaladığı "Ərzaqlıq buğda ilə özünütəminetmə səviyyəsinin yüksəldilməsinə dair bir sıra tədbirlər haqqında" fərman məhz bu çətin və həm də icrası mümkün olan vəzifənin həyata keçirilməsinə xidmət edir. Sənəddə bir daha qeyd olunur ki, ölkəmizdə ərzaq təhlükəsizliyinin təmin edilməsi, o cümlədən əsas ərzaq məhsulları ilə özünütəminetmə səviyyəsinin yüksəldilməsi bu gün aqrar sektorun qarşısında duran əsas vəzifələrdəndir.

→ 5




→ 7

## İrəvanda mühacirət dalğası getdikcə böyüyür

### Son bir ildə Ermənistanı bir milyondan çox insan tərk edib

"4rd.am" saytı yazır ki, əhalinin 2011-ci ilin siyahıyaalınmasına əsasən, Ermənistanda əhalinin sayı 3 milyon 18 min 900 nəfər, 2022-ci ilin əvvəlində isə 2 milyon 964 min 600 nəfər olub. 2021-ci ildə 2440 cütlük boşanıb, 2022-ci ildə isə ayrılan ailələrin sayı 137 nəfər çoxalaraq 2577 nəfər təşkil edib. Bu ilin ilk 7 ayı ərzində Ermənistanda 16548 nəfər ölüb.

→ 5

# Baş nazir Əli Əsədovun sədrliyi ilə Azərbaycanda ərzaqlıq buğda istehsalında mövcud problemlər və qarşıda duran vəzifələr müzakirə olunub





Sentyabrın 12-də Ağsu rayonuna səfəri çərçivəsində Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov ölkədə ərzaqlıq buğda istehsalında mövcud problemlərə və qarşıda duran vəzifələrə həsr olunan işçi müşavirə keçirib, həmçinin "Ağsu Aqropark" QSC-nin fəaliyyəti ilə tanış olub.

AZƏRTAC xəbər verir ki, müvafiq dövlət qurumlarının və aqrar sektorda fəaliyyət göstərən özəl şirkətlərin rəhbərlərinin iştirak etdiyi işçi müşavirədə Azərbaycan Respublikası Prezidentinin "Ərzaqlıq buğda ilə özünütəminetmə səviyyəsinin yüksəldilməsinə dair bir sıra tədbirlər haqqında" 2022-ci il 19 iyul tarixli 1754 nömrəli Fərmanının icrası ilə bağlı məsələlər müzakirə olunub. Ərzaq təhlükəsizliyi ilə bağlı qlobal çağırışlar, Azərbaycanda ərzaqlıq buğda istehsalında mövcud problemlər, qarşıda duran vəzifələr, fərmana uyğun olaraq dövlət dəstəyi mexanizmlərinə dair fikir mübadiləsi aparılıb.

Müşavirədə aidiyyəti dövlət qurumlarının rəhbərlərinin çıxışları, ərzaqlıq buğda istehsalçılarının, müasir suvarma sistemlərini tətbiq edən və tətbiq edilməsini planlaşdıran təsərrüfat rəhbərlərinin problemləri və təklifləri dinlənilib.

Baş nazir Azərbaycan Respublikası Prezidentinin müvafiq fərmanından irəli gələn tapşırıqlara uyğun olaraq hökumətin ərzaqlıq buğda istehsalçılarına dəstək verəcəyini, qarşıda duran əsas vəzifələrin əkinə yararlı torpaq ehtiyatlarının genişləndirilməsi, buğda istehsalında məhsuldarlığın artırılması, ərzaqlıq buğdanın keyfiyyətinin yüksəldilməsi, müasir texnologiyanın tətbiqi və su ehtiyatlarının qənaətlə sərf edilməsi olduğunu vurğulayıb.

Müşavirənin sonunda Azərbaycan Respublikası Prezidentinin fərmanın icrası ilə bağlı işlərin sürətləndirilməsi üçün aidiyyəti dövlət qurumlarına müvafiq tapşırıqlar verilib.

# AYİB-lə birgə həyata keçirilən layihələr davamlı və "yaşıl" inkişafı təşviq edir






Azərbaycanda səfərdə olan Avropa Yenidənqurma və İnkişaf Bankının (AYİB) prezidenti xanım Odil Reno-Basso-nun rəhbərlik etdiyi nümayəndə heyəti Şəhidlər xiyabanını ziyarət edib, Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş qəhrəmanlarımızın xatirəsini ehtiramla yad edib.

Sonra iqtisadiyyat naziri Mikayıl Cabbarov və AYİB nümayəndə heyəti arasında görüş keçirilib.

İqtisadiyyat Nazirliyindən AZƏRTAC-a bildirilib ki, görüşdə Azərbaycanın AYİB-lə əlaqələrin inkişafına önəm verdiyi və uğurlu əməkdaşlıq vurğulanıb. Qeyd edilib ki, bank tərəfindən indiyədək Azərbaycan iqtisadiyyatına 181 layihə üzrə 3,7 milyard avroya yaxın investisiya yatırılıb. AYİB-lə birgə layihələr ölkəmizdə müxtəlif sahələrdə qabaqcıl təcrübənin, müasir texnologiyaların və innovasiyaların tətbiqini genişləndirir. 2030-cu ilədək Azərbaycanın sosial-iqtisadi inkişaf prioritetlərini diqqətə çatdıran iqtisadiyyat naziri deyib ki, AYİB-in "Strateji və kapital çərçivəsi 2021-2025" sənədində əks olunmuş məqsədlər Azərbaycan iqtisadiyyatı üçün müəyyənləşdirilmiş hədəflərlə uyğunluq təşkil edir. Bu, Azərbaycan və AYİB arasında yeni əməkdaşlıq istiqamətləri üçün möhkəm əsas yaradır.

Bankın Azərbaycanla uzunmüddətli və səmərəli tərəfdaşlığını diqqətə çatdıran AYİB prezidenti xanım Odil Reno-Basso qurumun bundan sonra da Azərbaycan iqtisadiyyatını dəstəkləmək niyyətini, bu baxımdan ölkəmizin iqtisadi potensialının əlaqələrin genişlənməsinə əlavə imkanlar yaratdığını qeyd edib.

Görüşdə energetika, xüsusilə bərpaolunan enerji, KOB-ların dəstəklənməsi, dövlət müəssisələri ilə əməkdaşlıq, biznes mühiti və informasiya texnologiyaları ekosisteminin yaxşılaşdırılması, işğaldan azad olunmuş ərazilərimizdə həyata keçirilən layihələrdə AYİB-in iştirak imkanları barədə fikir mübadiləsi aparılıb.

Həmin gün AYİB-lə bir sıra sənədlərin imzalanması ilə




əlaqədar tədbir keçirilib. Tədbirdə çıxış edən iqtisadiyyat naziri Mikayıl Cabbarov, AYİB-in prezidenti xanım Odil Reno-Basso, Avropa İttifaqının Azərbaycandakı nümayəndəliyinin rəhbəri, səfir Peter Mixalko, rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini Samir Məmmədov, Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov sənədlərin davamlı və "yaşıl" inkişaf üçün əhəmiyyətini vurğulayıb, bu istiqamətdə əməkdaşlığın genişləndiriləcəyini qeyd ediblər.

Sonra "Gəncə - Yaşıl Şəhər Proqramı" çərçivəsində həyata keçiriləcək "Küçələrin işıqlandırılması" layihəsinə dair qrant, kredit və layihə sazişləri imzalanıb. Sənədləri AYİB-in prezidenti xanım Odil Reno-Basso və Azərbaycan tərəfdən müvafiq olaraq iqtisadiyyat naziri Mikayıl Cabbarov, maliyyə naziri Samir Şərifov və Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov imzalayıblar. Sazişlərə əsasən, Gəncə şəhərində infrastrukturun təkmilləşdirilməsi və "yaşıl" texnologiyaların tətbiqi nəzərdə tutulur.

Tədbirdə həmçinin Azərbaycan İnvestisiya Holdinqinin idarəçiliyinə verilmiş "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC və AYİB arasında mandat məktubu imzalanıb. Sənədi AYİB-in Davamlı infrastruktur qrupunun icraçı direktoru xanım Nandita Parşad, Azərbaycan İnvestisiya Holdinqinin baş icraçı direktoru Ruslan Əlixanov və "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin rəisi Rauf Vəliyev imzalayıblar. Sənədə əsasən AYİB tərəfindən Xəzər Dəniz Gəmiçiliyinin donanmasının yenilənməsi layihələrinin maliyyələşdirilməsinə dövlət zəmanəti olmadan irihəcmli kreditin ayrılması nəzərdə tutulur.

Tədbir çərçivəsində AYİB-in "Star Venture" proqramı üzrə startaplara mükafatlar təqdim olunub. Qeyd edək ki, "Star Venture" proqramının əsas məqsədi perspektivli startapların potensialının reallaşdırılmasının dəstəklənməsidir.

Tədbirdə həmçinin Azərbaycanın bankla əməkdaşlığı çərçivəsində ilk layihəyə - "IT Hub" layihəsinə başlanılacağı barədə məlumat verilib. Layihə çərçivəsində görüləcək işlər müasir bilik və bacarıqlara malik kadr potensialının gücləndirilməsi və regionların inklüziv inkişafına dəstək verəcək.

Ölkəmizə səfəri çərçivəsində AYİB nümayəndə heyəti İçərişəhərlə tanış olub.

# 47 qanuna dəyişiklik olunacaq

Vətəndaşlara elektron dövlət xidmətlərinin göstərilməsi işinin təkmilləşdirilməsi və bu zaman onlardan tələb olunan sənədlərin minimuma endirilməsi ölkə rəhbərliyinin diqqət mərkəzində olan məsələlərdəndir.

Bu günlərdə dövlət başçısının imzası ilə qanunvericilik təşəbbüsü qaydasında Milli Məclisə daxil olmuş sənədlər paketində müvafiq məsələləri özündə ehtiva edən 47 qanuna dəyişikliklər edilməsi nəzərdə tutulur.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, dəyişikliklərin əsas məqsədi Azərbaycan Respublikası Prezidenti tərəfindən təsdiq edilmiş "Açıq hökumətin təşviqinə dair Milli Fəaliyyət Planı"nın müvafiq bəndinin tələblərinin sahəvi qanunlarda əks olunmasıdır. Məlumat üçün bildiririk ki, adıçəkilən "Milli Fəaliyyət Planı"nın 4.2-ci bəndində nəzərdə tutulur ki, dövlət xidmətinin göstərilməsi üçün zəruri olan sənəd və ya məlumat digər dövlət qurumunda mövcud olduğu halda, həmin sənədin və ya məlumatın vətəndaşdan tələb edilmədən Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə müvafiq dövlət qurumundan alınmasının təmin edilməsi üçün bu prinsipin sahəvi normativ-hüquqi aktlarda təsbit edilməsi, habelə bu prinsipə əsaslanan elektron xidmətlərin sayının artırılması təmin edilməlidir.

Bu məsələnin sahəvi qanunlarda əks olunması həmin tələbin daha işlək və tətbiqedilən olmasını təmin edəcəkdir.

Qanun layihələrinin qəbulu vətəndaşların sənəd və ya məlumatın toplanması və təqdim edilməsi ilə bağlı problemlərinin aradan qaldırlılmasına və vaxt itkisinin azaldılmasına, bu əsasda vətəndaş məmnunluğunun artırılmasına, habelə ölkədə Elektron Hökumət İnformasiya Sisteminin funksionallığının daha da yüksəldilməsinə və qurumlararası elektron inteqrasiyanın güclənməsinə xidmət edəcəkdir.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Şərqi Zəngəzur iqtisadi rayonunda 1 saylı Bərpa, Tikinti və İdarəetmə Xidmətinin Müşahidə Şurasının növbədənkənar iclası olub



Azərbaycan Respublikası Prezidentinin fərmanı ilə yaradılmış Şərqi Zəngəzur iqtisadi rayonunda 1 saylı Bərpa, Tikinti və İdarəetmə Xidmətinin Müşahidə Şurasının növbədənkənar iclası keçirilib.

Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Zəngilan rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Vahid Hacıyevin sədrliyi ilə keçirilən iclasda Müşahidə Şurasının üzvləri - iqtisadiyyat nazirinin müavini Sahib Məmmədov, ekologiya və təbii sərvətlər nazirinin müavini Vüqar Kərimov, Dövlət Şəhərsalma və Arxitektura Komitəsi sədrinin birinci müavini Namiq Hümmətov iştirak ediblər.

AZƏRTAC xəbər verir ki, iclasda "Şərqi Zəngəzur iqtisadi rayonunda 1 saylı Bərpa, Tikinti və İdarəetmə Xidməti" publik hüquqi şəxsin strukturu, əməyin ödənişi fondu, işçilərinin say həddi və onların əməkhaqları təsdiq edilib. Onu da qeyd edək ki, xidmətin icraçı direktoru xidmətin Müşahidə Şurası tərəfindən təyin edilmiş Növrəs Qəhrəman oğlu Cəfərovdur. Daha sonra Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarının işğaldan azad edilmiş ərazilərində yaşayış məntəqələrinin (şəhər, kənd, qəsəbə) tikintisi, təmiri və bərpası işlərinin layihələndirilməsi və həyata keçirilməsi ilə bağlı prioritet məsələlər və inkişaf strategiyası müzakirə olunub.

Sonda verilən tapşırıqların vaxtında və tam həcmdə icra olunması əsas tələb kimi qoyulub və növbəti iclasın tarixi müəyyən edilib.

# Azərbaycanın müdafiə naziri türkiyəli həmkarına başsağlığı verib

Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov Türkiyə Respublikasının milli müdafiə naziri Hulusi Akara başsağlığı ünvanlayıb.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, başsağlığında deyilir: "Bölgədəki terror təhlükəsini zərərsizləşdirmək, ərazidə yaşayan mülki insanları terror hücumlarından və təhdidlərindən qorumaq məqsədilə qardaş Türkiyə Silahlı Qüvvələrinin həyata keçirdiyi antiterror əməliyyatlarının aparıldığı bölgədə şanlı türk ordusunun hərbi qulluqçularının şəhid olması və yaralanması xəbərləri məni dərindən kədərləndirir.

Sizin acınız bizim də acımızdır.

Terrora qarşı aparılan kəskin mübarizədə daim qardaş Türkiyə Silahlı Qüvvələrinin yanındayıq və sizi var gücümüzlə dəstəkləyirik.

Şəhid olmuş qəhrəman türk əsgərlərinə rəhmət diləyir, onların yaxınlarının dərdlərinə şərik olur, ailələrinə dərin hüznlə başsağlığı verirəm. Bütün yaralılara Tanrıdan şəfa diləyirəm.

Allah rəhmət eləsin!"

# Azərbaycan Ordusunun Baş Qərargah rəisi MDB Müdafiə Nazirləri Şurasının katibi ilə görüşüb

Sentyabrın 12-də müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyev ölkəmizdə səfərdə olan Müstəqil Dövlətlər Birliyi (MDB) Müdafiə Nazirləri Şurasının katibi general-mayor Yuri Daşkin ilə görüşüb. Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, görüşdə cari ilin oktyabr ayında Bakıda keçirilməsi planlaşdırılan MDB iştirakçı dövlətlərinin silahlı qüvvələrinin Qərargah Rəisləri Komitəsinin növbəti iclası ilə bağlı təşkilati məsələlər müzakirə olunub.

Tərəflər iclasın keçiriləcəyi yerə baxış keçirməyi qərara alıb və bir sıra digər məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

# Prezident İlham Əliyevin göstərişinə əsasən bölgələrdə vətəndaşların qəbulu keçirilir

Qida Təhlükəsizliyi Agentliyinin sədri Qoşqar Təhməzli sentyabrın 12-də Zaqatala rayonundakı Heydər Əliyev Mərkəzində Zaqatala, Qax və Balakən rayonundan olan vətəndaşları qəbul edib.

Agentliyin İnformasiya təminatı və innovativ həllər şöbəsindən verilən məlumata görə, qəbulda vətəndaşların müraciətləri dinlənilib, ərizə və şikayətlərinə baxılıb.

Qeyd edək ki, vətəndaşların müraciətləri əsasən agentliyin səlahiyyət dairəsinə aid məsələlərlə (qida məhsullarının təhlükəsizliyi, baytarlıq və fitosanitar nəzarətinə dair normativ tənzimləmə, qida təhlükəsizliyi sahəsində fəaliyyət göstərən subyektlərin qeydiyyatı, qida təhlükəsizliyi, fitosanitar və baytarlıq sertifikatlarının verilməsi və s.) əlaqədar olub. Müraciətlərin bir qismi yerində həll olunub, bəzi məsələlər araşdırılması üçün nəzarətə götürülüb, agentliyin fəaliyyət dairəsinə aid olmayan müraciətlər isə müvafiq qurumlara çatdırılmaq üçün qeydiyyata alınıb.

***

Rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev sentyabrın 12-də Qax şəhərində vətəndaşları qəbul edib.

Vətəndaş qəbulunda Balakən, Zaqatala, Qax, Şəki, Oğuz və Qəbələ rayonlarının sakinləri iştirak ediblər.

Qəbulda vətəndaşların nəqliyyat, telekommunikasiya, o cümlədən internet, teleradio yayımı və poçt xidmətləri ilə bağlı müraciətlərinə baxılıb.

Nazir Rəşad Nəbiyev müraciətlərin mövcud qanunvericiliyin tələblərinə uyğun və operativ şəkildə araşdırılması ilə əlaqədar nazirliyin müvafiq qurumlarının rəhbərlərinə tapşırıqlar verib.

Vətəndaşların müraciətlərində qaldırılan problemlərin bir qismi dərhal həllini tapıb.

***AZƏRTAC***

# ANAMA rəhbərinin başçılığı ilə ABŞ-da minatəmizləmə istiqamətində bir sıra görüşlər keçiriləcək

Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin (ANAMA) İdarə Heyətinin sədri Vüqar Süleymanovun başçılıq etdiyi nümayəndə heyətinin Amerika Birləşmiş Ştatlarına səfəri təşkil olunub.

ANAMA-dan AZƏRTAC-a bildirilib ki, nümayəndə heyətinin tərkibinə Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı Əlaqələndirmə Qərargahının nəzdindəki İdarələrarası Mərkəzin Katibliyi və Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin məsul şəxsləri daxildir.

Bu il sentyabrın 12-16-da baş tutacaq səfər çərçivəsində Azərbaycanda mövcud mina probleminin gündəmə gətirilməsi, azad edilmiş ərazilərin bərpası və bu ərazilərə həyatın qaytarılmasının əsas strateji hədəf olaraq önə çəkilməsi, bu sahədə mümkün dəstəyin göstərilməsi məqsədilə bir sıra önəmli qurumlarla mərhələli şəkildə görüşlər və “dəyirmi masa”lar keçiriləcək.

# Qadın Parlament Sədrlərinin 14-cü Sammitinin iştirakçıları Özbəkistanın Səmərqənd şəhərinə səfər ediblər

Xəbər verdiyimiz kimi, Milli Məclisin Sədri Sahibə Qafarova Qadın Parlament Sədrlərinin 14-cü Sammitində iştirak etmək məqsədilə Özbəkistanın paytaxtı Daşkənd şəhərinə işgüzar səfər edib. Sentyabrın 10-da sammitdə iştirak edən nümayəndə heyətləri Özbəkistanın Səmərqənd şəhərinə gəliblər.





Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Milli Məclisin Sədri Sahibə Qafarova, Özbəkistan Ali Məclisi Senatının Sədri Tənzilə Narbayeva, Parlamentlərarası İttifaqın baş katibi Martin Çunqonq, sammitdə iştirak edən parlament rəhbərləri və onların başçılıq etdikləri nümayəndə heyətləri Səmərqəndin tarixi və mədəni yerləri ilə tanış olublar. Qonaqlar Uluqbek Rəsədxanası, Müqəddəs Daniil məqbərəsi, Şahi-Zində məqbərəsi, Bibixanım məqbərəsi, Registan meydanı və Əmir Teymur məqbərəsində olublar. Burada nümayəndə heyətlərinin üzvlərinə tarixi yerlər haqqında ətraflı məlumat verilib. Milli Məclisin Sədri Sahibə Qafarova Özbəkistan kütləvi informasiya vasitələrinə müsahibə verib.

*"Azərbaycan"*

# Milli Məclisin Sədri Sahibə Qafarova Tacikistan Respublikasının Prezidenti ilə görüşüb

*Əvvəli 1-ci səh.*

Milli Məclisin Sədri Sahibə Qafarova Azərbaycan parlament nümayəndə heyətinə göstərilən yüksəksəviyyəli münasibətə və qonaqpərvərliyə görə minnətdarlığını ifadə edib. O, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin salamlarını və xoş arzularını Tacikistan Respublikasının Prezidentinə çatdırıb.

Spiker Sahibə Qafarova bildirib ki, xalqlarımız arasında tarixən mövcud olan dostluq münasibətləri bu gün ölkələrimizin bir çox sahələrdə uğurlu əməkdaşlığı üçün geniş baza yaradır. Azərbaycanın və Tacikistanın bir çox istiqamətlərdə qarşılıqlı faydalı əlaqələrindən bəhs edən Milli Məclisin Sədri ölkələrimiz arasında münasibətlərin yüksək səviyyədə inkişaf etməsində dövlət başçılarının önəmli rolunu vurğulayıb.

Parlamentin sədri Azərbaycan və Tacikistanın qanunvericilik orqanları arasında əməkdaşlığın da uğurla inkişaf etdiyini bildirərək, bu istiqamətdə atılan addımlar barədə məlumat verib. O, cari ilin mart ayında Azərbaycan Respublikasının Milli Məclisi ilə Tacikistan Ali Məclisinin Milli Məclisi arasında əməkdaşlıq haqqında sazişin imzalandığını, bu sənədin əməkdaşlığımızın daha da genişlənməsinə ciddi əsaslar yaratdığını diqqətə çatdırıb. Sahibə Qafarova Tacikistan Respublikası Ali Məclisinin Milli Məclisinin Sədri Rüstəm Emoməlinin, Ali Məclisin Nümayəndələr Palatasının sədri Mahmadtoir Zokirzodanın ölkəmizə səfərlərinin ikitərəfli münasibətlərə töhfələr verdiyini qeyd edib. O, beynəlxalq parlament təşkilatlarında da qarşılıqlı əməkdaşlığın əhəmiyyətindən danışıb.



Spiker Sahibə Qafarova Tacikistan Prezidentinə Azərbaycanın Qoşulmama Hərəkatına uğurlu sədrliyi, ölkəmizin təşəbbüsü ilə hərəkatın Parlament Şəbəkəsinin yaradılması, şəbəkənin Bakıda keçirilən birinci konfransı barədə ətraflı məlumat verib.

Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmon Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin salamlarına görə minnətdarlığını bildirərək, onun da salamlarını və xoş arzularını Azərbaycan Prezidentinə çatdırmağı xahiş edib.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər haqqında da fikir mübadiləsi aparılıb.

Görüşdən sonra Milli Məclisin Sədri Sahibə Qafarova Tacikistan kütləvi informasiya vasitələrinə müsahibə verib. Spiker bu ölkədə keçirdiyi görüşlər, Azərbaycanla Tacikistan arasında münasibətlər, parlamentlərarası əməkdaşlıq və digər mövzular barədə jurnalistlərin suallarını cavablandırıb.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Milli Məclisin Sədri Sahibə Qafarova Tacikistanda rəsmi səfərdədir



Milli Məclisin Sədri Sahibə Qafarovanın başçılığı ilə parlament nümayəndə heyəti Tacikistan Respublikasına rəsmi səfər edib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, nümayəndə heyətinə Milli Məclisin Azərbaycan-Tacikistan parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Aydın Mirzəzadə, qrupun üzvləri Azər Badamov, Anatoliy Rafailov və digər rəsmi şəxslər daxildirlər.

Düşənbə Beynəlxalq Hava Limanında nümayəndə heyətini Tacikistan Ali Məclisi Milli Məclisi Sədrinin birinci müavini Rajabbəy Ahmadzadə, Azərbaycanın Tacikistandakı səfiri Əlimirzamin Əsgərov, Tacikistanın Azərbaycandakı səfiri Rustam Soli və digər rəsmi şəxslər qarşılayıblar.

Səfər çərçivəsində Milli Məclisin Sədrinin Tacikistan Ali Məclisinin yuxarı və aşağı palatalarının sədrləri və digər ölkə rəsmiləri ilə görüşləri nəzərdə tutulub.

Görüşlərdə parlamentlərarası əlaqələrin inkişaf perspektivləri, əməkdaşlığın genişləndirilməsi və digər məsələlər barədə fikir mübadiləsi aparılacaq.

*"Azərbaycan"*

# Tacikistan dost Azərbaycanla münasibətlərə böyük önəm verir

Tacikistan Respublikasında rəsmi səfərdə olan Milli Məclisin Sədri Sahibə Qafarova bu ölkənin Ali Məclisi Milli Məclisinin Sədri Rüstəm Emoməli ilə görüşüb.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, əvvəlcə Milli Məclisin Sədri Sahibə Qafarova ilə Tacikistan Ali Məclisi Milli Məclisinin Sədri Rüstəm Emoməli arasında təkbətək görüş keçirilib. Görüşdə iki ölkə arasında münasibətlərin inkişafı, parlamentlərarası əməkdaşlığın gücləndirilməsi ilə bağlı müzakirələr aparılıb.

Sonra görüş nümayəndə heyətlərinin iştirakı ilə davam etdirilib. Azərbaycanın Milli Məclisinin Sədrini səmimiyyətlə salamlayan Tacikistan Respublikası Ali Məclisi Milli Məclisinin Sədri Rüstəm Emoməli deyib ki, ölkəsi dost Azərbaycanla münasibətlərə böyük önəm verir və yüksək qiymətləndirir. Onun sözlərinə görə, iki ölkə arasında həm ikitərəfli, həm də çoxtərəfli əlaqələr, həmçinin beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq uğurla inkişaf edir. Azərbaycanın Tacikistanın xarici siyasətində mühüm yer tutduğunu vurğulayan Rüstəm Emoməli münasibətlərimizin zəngin tarixi köklərə əsaslandığını qeyd edib. O, Milli Məclisin Sədri Sahibə Qafarovanın parlament rəhbəri kimi Tacikistana ilk dəfə səfər etdiyini vurğulayaraq, bu səfərin iki dost ölkənin parlamentlərarası əlaqələrinin daha da inkişafına töhfə verəcəyinə inamını bildirib. O, bunu qanunverici orqanlar arasında yüksək əməkdaşlıq əlaqələrinin davamı kimi qiymətləndirərək, səfərin ümumi maraqlarımıza xidmət edən məsələlərin müzakirəsi üçün yaxşı imkan olduğunu bildirib. Rüstəm Emoməli Azərbaycanın Qoşulmama Hərəkatına uğurlu sədrliyini qeyd edərək, ölkəmizin təşəbbüsü ilə hərəkatın Parlament Şəbəkəsinin yaradılmasını xüsusi vurğulayıb, Tacikistan parlamentinin də şəbəkəni dəstəkləməyə hazır olduğunu bildirib.



Milli Məclisin Sədri Sahibə Qafarova göstərilən qonaqpərvərliyə görə minnətdarlığını bildirərək ölkələrimiz arasında dostluq, tərəfdaşlıq əlaqələrinin olduğunu diqqətə çatdırıb. Bu il Azərbaycanla Tacikistan arasında diplomatik münasibətlərin qurulmasının 30-cu ildönümünün tamam olduğunu xatırladan spiker Sahibə Qafarova ötən illər ərzində ölkələrimiz arasında siyasi, iqtisadi, mədəni, humanitar sahələrdə əlaqələrin uğurla inkişaf etdiyini söyləyib. O, ölkələrimiz və xalqlarımız arasında münasibətlərin dərinləşməsində dövlət başçılarının qarşılıqlı səfərlərinin əhəmiyyətini vurğulayıb.

Ölkələrimiz arasında əlaqələrin inkişafında qanunverici orqanların önəmli rol oynadığını deyən Milli Məclisin Sədri bildirib ki, parlamentlərimizin uğurlu əməkdaşlığı xalqlarımızın maraqlarına xidmət edir. Spiker cari ilin mart ayında Rüstəm Emoməlinin ölkəmizə səfəri çərçivəsində Azərbaycan Respublikasının Milli Məclisi ilə Tacikistan Ali Məclisinin Milli Məclisi arasında əməkdaşlıq haqqında sazişin imzalandığını xatırladaraq bildirib ki, bu sənəd əməkdaşlığımızın daha da genişlənməsinə əsaslar yaradıb. Qeyd edib ki, qanunverici orqanlarımız bir sıra beynəlxalq parlament təşkilatlarında da uğurla əməkdaşlıq edirlər.

Sahibə Qafarova Azərbaycan Milli Məclisinin parlament təşkilatları ilə əməkdaşlığa böyük önəm verdiyini diqqətə çatdıraraq, ölkəmizin Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinin işinə əhəmiyyətli töhfələr verdiyini bildirib. O xatırladıb ki, ötən ilin noyabrında Madriddə Azərbaycan Prezidentinin təşəbbüsü ilə Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinin təsis yığıncağı keçirilib və Parlament Şəbəkəsi təsis olunub. Bu ilin 30 iyun-1 iyul tarixlərində isə Azərbaycanda 40 ölkənin parlamentlərinin və 8 beynəlxalq parlament təşkilatının nümayəndə heyətlərinin iştirakı ilə Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinin Bakı Konfransı baş tutub. Konfrans zamanı bizim ümumi mövqeyimizi və baxışlarımızı əks etdirən Bakı Bəyannaməsi qəbul edilib. Bu, hərəkatın Parlament Şəbəkəsinin institusional inkişafı baxımından mühüm əhəmiyyət kəsb edir.

Milli Məclisin Sədri həmçinin Azərbaycanın öz ərazi bütövlüyünü bərpa etdikdən sonra regionda mövcud olan vəziyyət, ölkəmizin işğaldan azad edilmiş şəhər və rayonlarında həyata keçirilən böyük quruculuq işləri barədə də qarşı tərəfə məlumat verib.

Söhbət zamanı qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

Görüşdə Azərbaycan-Tacikistan parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Aydın Mirzəzadə, qrupun üzvləri Anatoliy Rafailov, Azər Badamov, Azərbaycanın Tacikistandakı səfiri Əlimirzamin Əsgərov və digər rəsmi şəxslər iştirak ediblər.

***R.CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Milli Məclisin Sədri Sahibə Qafarovanın başçılıq etdiyi parlament nümayəndə heyəti Düşənbədə Dusti meydanında olub





Tacikistan Respublikasında rəsmi səfərdə olan Milli Məclisin Sədri Sahibə Qafarovanın başçılıq etdiyi parlament nümayəndə heyəti sentyabrın 12-də Düşənbə şəhərində Dusti meydanına gəlib.



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, burada spiker Sahibə Qafarova İsmoili Somoninin abidəsi önünə gül çələngi qoyub.

*"Azərbaycan"*

# Milli Məclisin nümayəndə heyəti Düşənbə şəhərində bir sıra tarixi-mədəni yerlərlə tanış olub





Milli Məclisin Sədri Sahibə Qafarovanın başçılıq etdiyi parlament nümayəndə heyəti Tacikistan Respublikasına rəsmi səfəri çərçivəsində Düşənbə şəhərində bir sıra tarixi-mədəni yerlərlə tanış olub.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, nümayəndə heyətinin üzvləri əvvəlcə "Koxi Navruz" kompleksinə baş çəkib. Məlumat verilib ki, 12 böyük zaldan ibarət olan kompleks mərasim və tədbirlər üçün nəzərdə tutulub. Qonaqlar kompleksin ekspozisiyası və zalları ilə tanış olublar.

Sonra parlament nümayəndə heyəti Tacikistan Milli Muzeyində tacik xalqının qədim tarixi, mədəniyyəti haqqında eksponatlarla tanış olub.

*"Azərbaycan"*

# "Dəmir yumruğ"un "Qisas"ı davam edə bilər

## Ermənistan təxribatçı əməllərini dayandırmasa, aqibəti ağır olacaq

**27 sentyabr 2020-ci ildə Ermənistanın törətdiyi növbəti təxribata cavab olaraq Azərbaycan əks-hücum əməliyyatına başladı və 30 il işğal altında qalan tarixi torpaqlarını azad etdi. 44 günlük Vətən müharibəsində Azərbaycan Ermənistanı hərb meydanında diz çökdürərək kapitulyasiya aktına imza atmağa məcbur etdi.**

2020-ci ilin 10 noyabr tarixində Rusiya, Azərbaycan prezidentlərinin və Ermənistanın baş nazirinin imzaladığı üçtərəfli Bəyanatla münaqişəyə birdəfəlik son qoyuldu.

### Azərbaycan diplomatik arenada da qalibdir

44 günlük müharibədən sonra Azərbaycan ardıcıl olaraq diplomatik müstəvidə də uğurlar qazandı. Müharibədən sonra aparılan bütün diplomatik danışıqlarda şərtləri məhz Bakı diktə etdi və Ermənistan tərəfi bu şərtləri qeyd-şərtsiz qəbul etməyə məcbur oldu. Bu, ötən il noyabrın 26-da Soçidə Azərbaycan Prezidenti İlham Əliyev, Rusiya Prezidenti Vladimir Putin və Ermənistanın baş naziri Nikol Paşinyan arasında üçtərəfli görüşün nəticəsində qəbul edilən bəyanat da ölkəmizin növbəti diplomatik uğuru kimi xarakterizə olundu.

Eyni zamanda Avropa İttifaqının vasitəçiliyi ilə keçən ilin dekabrından başlayan "Brüssel prosesi" sayəsində üçtərəfli görüşlərdə Azərbaycanın mövqeyi daha da möhkəmləndi. Dördüncü Brüssel görüşündə isə rəsmi Bakı İrəvanı sülhə məcbur etdi. Ermənistan rəhbərliyi də anladı ki, bölgədə sülh prosesini yubadacaq məkrli planları daha işləmir və sülh sazişinin bağlanması ilə əlaqədar əməli işlər görməkdən başqa çarələri yoxdur.

Buna görə də avqustun 31-də Brüsseldə Avropa İttifaqının prezidenti Şarl Mişelin təşəbbüsü ilə Azərbaycan və Ermənistan liderləri arasında baş tutan üçtərəfli görüşdə Nikol Paşinyan iki ilə yaxındır ki, hər cür riya, hiylə, təxribatçı əməllərlə maneçilik törətdikləri sülhə razı olduqlarını bildirdi.

Amma bu cür məsuliyyətli öhdəliyi üzərlərinə götürdükləri və özlərinin xilası üçün olduqca həssas sayılacaq bir dönəmdə yenə də xain erməni xisləti özünü göstərməkdədir.



### Ermənistan xain davranışlarından əl çəkmir

Ermənistanın təkcə son bir neçə gün ərzində bölgədə əl atdığı təxribatçı hərəkətlərə nəzər salaq: 2 sentyabr 2022-ci il, dördüncü Brüssel görüşünün üzərindən heç üç gün keçməmiş Ermənistan Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryan Xankəndiyə qanunsuz səfər etdi.

Elə həmin tarixdə Ermənistan Basarkeçər rayonunun Yuxarı Şorca yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərindən Kəlbəcər rayonunun Yellicə yaşayış məntəqəsi istiqamətində yerləşən ordumuzun mövqelərini, həmçinin qeyd olunan mövqelərimizə təminat daşıyan 2 hərbi nəqliyyat vasitəsini atəşə tutdu.

Sonrakı günlərdə isə ardıcıl olaraq Ermənistan tərəfi sərhədlərimizdə atəşi pozmaqda davam edir.

Azərbaycan Müdafiə Nazirliyinin sentyabrın 12-də səhər saatlarında yaydığı məlumata nəzər yetiririk: "Sentyabrın 11-i axşam saatlarında Ermənistan silahlı qüvvələrinin bölmələri Azərbaycan-Ermənistan dövlət sərhədinin Çəmbərək rayonunun Cil və Gorus rayonunun Xanazax yaşayış məntəqələri istiqamətlərində yerləşən mövqelərindən ordumuzun Gədəbəy rayonunun Novoivanovka və Laçın rayonunun Hüsülü yaşayış məntəqələri istiqamətlərində yerləşən mövqelərini atıcı silahlardan atəşə tutub.

Bundan başqa, Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazisində olan qeyri-qanuni erməni silahlı dəstələrinin üzvləri tərəfindən Azərbaycan Ordusunun Kəlbəcər rayonunun Ağqaya yaşayış məntəqəsi istiqamətində yerləşən mövqeləri atəşə tutulub.

Ordumuzun bölmələri tərəfindən adekvat cavab tədbirləri görülüb".

Düzü, Ermənistan hakimiyyətinin üzdə bir söz deyib, arxada başqa cür sərgilədiyi xain davranışını dünya necə adlandırır, bilmirik. Çünki dünya hər zaman olduğu kimi, ikili yanaşmasından əl çəkmir və yenə də bu ölkənin qanunsuz davranışlarına göz yumaraq inadla susur.

Amma dünya dilə gətirsə də, gətirməsə də, bu insanlıqdan uzaq davranışlar elə ermənilərin əsl simasının, faşist xislətlərinin bariz göstəricisidir.

### Azərbaycan bölgədə sülhü təşviq edir

Digər tərəfdən işğalçı ölkə Azərbaycanın onlara qarşı sərgilədiyi səbir limitini də tükətdiklərinin fərqindədir. Elə Zəfər komandanı İlham Əliyevin diplomatik üstünlüyü ilə başa çatan dördüncü Brüssel görüşündən sonra Nikol Paşinyanın artıq bölgədəki mövcud reallıqları qəbul etməkdən başqa çarəsinin olmadığını göstərən açıqlamalarından da bunu aydın sezmək olur.

Həm də Ermənistan Azərbaycanın danışıqları daha bundan o yana uzatmayacağını və sülhlə bağlı konkret nəticələrə gəlinməyəcəyi təqdirdə, "Qisas" əməliyyatının timsalında başlarına gələcək acı aqibətin də yaxşı fərqindədir.

Sadəcə onların nümayiş etdirdiyi bu ağılsız davranışlar məkrli niyyətlərini həyata keçirmək üçün göstərdikləri son çabalamalar kimi də qiymətləndirilə bilər. Bu xain xislətlilərin sülhə mane olmaq üçün üzərlərinə götürdükləri öhdəlikləri hər vəchlə yubatmağa çalışmaları, dövlət sərhədlərimizi atəşə tutmaları, ərazilərimizə mina basdırmaları, bir sözlə, təxribatçı əməlləri buna misaldır.

Onlar özləri belə inanmadıqları halda son bir ümid kimi güman edirlər ki, hansısa ölü bir qurum dirilərək işğalçılara yardım edə bilər, 30 il ərzində olduğu kimi, yenə də ermənilərin yalan dəyirmanına su tökər. Amma artıq o əyyamlar geridə qalıb.

İndi Ermənistana yardım edəcək, onları xəstə təfəkkürlərində qurduqları yalan dünyasından ayrılaraq reallıqlarla yaşamağa sövq edəcək, sözün əsl mənasında, yuvarlandıqları uçurumdan xilas edəcək yeganə xilaskar elə yenə də Azərbaycandır.

Onsuz da Azərbaycan hər zaman konstruktivlik nümayiş etdirərək Ermənistana təkmil sülh modeli təklif edir. Eyni zamanda 10 noyabr Bəyanatı ilə üzərinə götürdüyü öhdəlikləri zamanından əvvəl yerinə yetirərək böyük əzmkarlıq göstərir və regionda əbədi sülhü təşviq edir.

### Əks təqdirdə "dəmir yumruq" yenə işə düşməli olacaq

Azərbaycan hər zaman öz milli maraq və mənafelərini qətiyyətlə təmin edir. Ermənistanın ölkəmizə qarşı növbəti təxribatından sonra 44 günlük Vətən müharibəsində "dəmir yumruq" sayəsində düşməni qarşısında diz çökdürərək yalvarmağa məcbur etməsi buna bariz nümunədir.

Eləcə də mənfur düşmənin bu il avqustun əvvəlində törətdiyi təxribata cavab olaraq Azərbaycanın növbəti "Qisas" əməliyyatı ilə sarsılması real faktdır.

Bütün bu faktları göz önünə gətirərək atdığı ağılsız addımların nə ilə nəticələnəcəyini isə elə Ermənistanın özündən daha yaxşı başa düşən olmaz. Odur ki, işğalçı nə qədər ki, gec deyil, ağlını başına yığmalı və təxribatçı əməllərinə son qoymalıdır.

Əks təqdirdə "dəmir yumruq" yenə işə düşməli olacaq.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

# Qarabağ və Şərqi Zəngəzurun "hava qapıları"

## Füzuli, Zəngilan və Laçın beynəlxalq aeroportlarının logistika, turizm və hərbi-strateji baxımdan böyük əhəmiyyəti var

44 günlük Vətən müharibəsindəki qələbəmizdən dərhal sonra Qarabağ və Şərqi Zəngəzurda geniş bərpa və yenidənqurma işlərinə başlanıldı. İlk sırada duran işlərdən biri yol infrastrukturunun qurulması idi ki, burada hava yolları da müstəsna əhəmiyyət daşıyırdı.

Elə bu məqsədlə Prezident İlham Əliyevin tapşırığı ilə ilk olaraq Füzuli Beynəlxalq Hava Limanının tikintisinə başlanıldı. Qısa zamanda aeroport tikilərək ötən ilin oktyabr ayında istifadəyə verildi. Təbii ki, işğaldan azad olunmuş ərazilərdə işlərin sürətli şəkildə həyata keçirilməsi, kommunikasiyanın inkişafı üçün hava limanlarının salınması vacib idi. Artıq Füzuli hava limanı fəaliyyət göstərir. Bir neçə gün öncə isə Zəngilan Beynəlxalq Hava Limanına "Azərbaycan Hava Yolları"nın (AZAL) ən böyük sərnişin təyyarəsi olan "Airbus A340-500" ilk texniki uçuşunu həyata keçirdi. Bu da hava limanının yaxın zamanda açılacağından xəbər verir. Laçında da hava limanının tikintisi sürətlə gedir. İqtisadçılar işğaldan azad olunmuş ərazilərdə tikilən hava limanlarının əhəmiyyətinin böyük olduğunu bildirirlər.

### Hava limanları regionun ixrac imkanlarının genişləndirilməsi baxımından da vacibdir

Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Vüqar Bayramov qəzetimizə açıqlamasında deyib ki, iqtisadi qiymətləndirmələr işğaldan azad olunan ərazilərdə üç hava limanının fəaliyyətinin çox səmərəli olacağını göstərir. Deputat qeyd edir ki, Füzuli hava limanı Qarabağa getmək istəyən daxili və xarici turistlər üçün cəlbedici olacaq. Bu hava limanı Zəfər yoluna inteqrasiya olunduğundan turist səfərlərini də asanlaşdıracaq.

Onun sözlərinə görə, Zəngəzur dəhlizinin də "Şərq-Qərb" nəqliyyat dəhlizinə inteqrasiya olunacağını nəzərə alsaq, həm sərnişin, həm də beynəlxalq yükdaşımalar baxımından Zəngilanda hava limanına ehtiyac var idi.

Deputat bildirir ki, Zəngilan və Füzuli hava limanlarının iqtisadi göstəriciləri demək olar ki, eynidir. Hava limanları uzunluğu 3 kilometr, eni 60 metr olan uçuş-enmə zolağı, 8 hava gəmisinin dayanması üçün 60 min kvadratmetrlik sahə, sərnişinlərə xidmət göstərəcək terminal, hava gəmilərinin idarə edilməsi üçün qüllə, transformator yarımstansiyası, qazanxana, su anbarı və başqa köməkçi tikililərdən ibarət olacaq. Hava limanları ayrı-ayrılıqda 1 saatda 200 sərnişinə xidmət edə biləcək.

V.Bayramov hava limanlarının həm də həmin ərazilərdə istehsal olunacaq sənaye məhsullarının dünya bazarına çıxarılması və bütövlükdə regionun ixrac imkanlarının genişləndirilməsi baxımından da vacib olduğunu vurğulayır. Bu limanlar yeni iş yerlərinin açılmasına da xidmət edir. Onların xüsusən işğaldan azad olunmuş ərazilərimizdə məskunlaşan vətəndaşlarımızın məşğulluğunun təmin olunması baxımından əhəmiyyəti var.




Deputat deyir ki, hava limanları Laçın, Kəlbəcər və Şuşa şəhərlərinə çıxış imkanları baxımından da önəmlidir. Laçının strateji əhəmiyyətini nəzərə aldıqda həmin rayonda beynəlxalq standartlara uyğun infrastrukturun formalaşdırılması çox vacib idi. İnşa edilən hava limanları bütün növ təyyarələri, o cümlədən ağır yük təyyarələrini qəbul edə biləcək. Bu isə onların strateji əhəmiyyətini göstərir.

### Aeroportlar Azərbaycanın əhəmiyyətini beynəlxalq müstəvidə artıracaq

İqtisadçı ekspert Eldəniz Əmirov deyir ki, işğaldan azad edilmiş ərazilərimizdə iqtisadi reinteqrasiyanın təmin olunması üçün ilk növbədə infrastrukturun yaradılması vacib idi ki, bu da yol infrastrukturundan başlayırdı.

Ekspert bildirir ki, bu istiqamətdə həm quru yollarının çəkilməsi, həm də hava məkanının ölkənin nəqliyyat infrastrukturuna birləşdirilməsi vacib idi. Azərbaycanda avtomobil yollarının uzunluğu 20 min kilometrdən artıqdır. Bunun da beşdəbiri işğaldan azad olunmuş ərazilərin payına düşür. Bu yollar isə tamamilə dağıdılmışdı. Onların qurulması kifayət qədər maliyyə vəsaiti və zaman tələb etsə də, Azərbaycan bu işlərə start verdi. Azad olunmuş ərazilərdə üç hava limanı da inşa edilməyə başlanıldı. Bunlardan biri artıq istifadəyə verilib, ikincisi, demək olar, hazırdır, digərində isə işlər gedir. İşğaldan azad olunmuş ərazilərdə hər üç hava limanının ümumi faydaları ilə yanaşı, hər birinin ayrılıqda önəmli statusları var. Ümumi fayda odur ki, hər üç hava limanı bu ərazilərin iqtisadiyyatının inkişafına, bərpasına öz töhfəsini verəcək. Hər biri həm daxili, həm xarici turizmin inkişafına kömək edəcək. Eyni zamanda Azərbaycanın bu mövqedə daha da güclənməsinə təkan verəcək.

İqtisadçı deyir ki, bundan əlavə hər bir hava limanının digərindən üstün cəhəti də var. Füzuli Beynəlxalq Hava Limanı daha çox mərkəzi mövqedə yerləşməklə, respublikanın digər ərazilərinin işğaldan azad olunmuş ərazilərlə birləşməsi, logistik fəaliyyətin təmin olunması baxımından böyük önəm daşıyır. Yəni coğrafi koordinatlara baxmış olsaq, görərik ki, bu hava limanından istifadə etməklə daha çox ünvanlara, digər rayonlara səyahət etmək olacaq. Bu da ərazilərin iqtisadi potensialına daha çox töhfəsini verəcək. Buna görə də ilk olaraq Füzuli hava limanı istifadəyə verildi.

Onun sözlərinə görə, Laçında tikilməkdə olan hava limanı həm daxili, həm də xarici turizmin inkişafına töhfə verəcək. Bundan başqa, bu ərazinin qış aylarında yüklərin daşınması üçün relyef baxımından çətin olduğunu nəzərə alsaq, Laçın hava limanının əhəmiyyəti müstəsna olacaq. Ömər aşırımı vasitəsilə Kəlbəcərə, Laçına yollarla səyahət ciddi problemlər yaradır. Bu normaldır, çünki iqlimdir, qış aylarında bu ərazilərdə hərəkət çətin olur.

Eldəniz Əmirov deyir ki, Laçında olan hava limanı digərləri ilə müqayisədə daha çox hərbi əhəmiyyətli olacaq: "Bu hava limanı Azərbaycanın hərbi mövqeyinin möhkəmlənməsində daha böyük rol oynayacaq".

O, Zəngilan hava limanının əhəmiyyətindən də söz açaraq bildirir ki, bu aeroport Azərbaycanın beynəlxalq müstəvidə əhəmiyyətini artıracaq. "Şimal-Cənub", "Qərb-Şərq", eyni zamanda "Cənub-Qərb" dəhlizlərinin Azərbaycandan keçməsi və bu nöqtədə birləşməsi Zəngilanı logistik hava məkanına çevirir. Zəngəzur dəhlizinin açılacağı təqdirdə Zəngilanın və Zəngilan hava limanının əhəmiyyəti daha da artacaq. Bu hava limanı Zəngəzur dəhlizinə inteqrasiya olunacaq. Türkiyənin Orta Asiyaya çıxışı bu marşrut üzrə olacaq. Eyni zamanda Orta Asiyadan Avropaya yük daşımalarının həyata keçirilməsində də bu hava limanı mühüm rol oynayacaq. Hansı istiqamətdə baxası olsaq, Zəngilan Beynəlxalq Hava Limanı digərləri ilə müqayisədə daha çox çəkiyə malikdir. Bu, Azərbaycan miqyasında əhəmiyyətlilik dərəcəsinə görə ikinci vacib hava limanı olacaq.

İşğaldan azad olunmuş ərazilərdə tikilən hava limanları bölgənin əhəmiyyətini artırmaqla yanaşı, Qarabağın və Şərqi Zəngəzurun gələcəkdə turizm potensialının artmasına imkan yaradacaq. Yenidənqurma və bərpa işləri başa çatdıqdan sonra bu əraziyə turist axınında hava limanlarının müstəsna xidmətləri olacaq.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*



# Qafqazın həlledici gücü

*Əvvəli 1-ci səh.*

Anlaya bilmirlər ki, kimlərinsə yedəyində oturub hegemonluq etdikləri, özlərini qalib kimi apardıqları dövr keçmişdə qalıb və bu, bir də baş verməyəcək.

Bunu təsdiq edən əsas faktorlardan biri də Ermənistanın iqtisadi vəziyyətinin işğal siyasəti yürütməyə imkan verməməsidir. Digər tərəfdən mövcud beynəlxalq şəraitdə Ermənistanın hansısa xarici hərbi yardıma ümid etməsi xam xəyaldan başqa bir şey deyil. Ən mühümü odur ki, Azərbaycan onsuz da yüksək olan hərbi qüdrətini 44 günlük müharibədən sonra daha da artırır, döyüş imkanlarını daha da genişləndirir. Odur ki, Azərbaycan, onun "dəmir yumruğ"u Ermənistandakı revanşistlərin də niyyətlərini gözlərində qoyacaq.

## Ermənistan reallıqlara uyğunlaşmalıdır

Müharibədən sonrakı dövrün reallıqları da göstərir ki, bütün proseslər savaşın qalibi olan Azərbaycanın maraqlarına uyğun gedir. Ən mühümü odur ki, Bakı bütün reallıqları diktə edən tərəf kimi çıxış edir və İrəvanın bu həqiqətlərə uyğunlaşmaqdan başqa yolu yoxdur. Prezident İlham Əliyevin avqustun 31-də Brüsseldə Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişel və Ermənistanın baş naziri Nikol Paşinyanla görüşü də bunu təsdiq edir.

Bununla bağlı vacib məqamlardan biri danışıqların Azərbaycanın irəli sürdüyü beş baza prinsipi üzrə aparılmasıdır. Sentyabrın 2-də İtaliyanın Çernobbio şəhərində "The European House - Ambrosetti" beyin mərkəzi tərəfindən "Dünya, Avropa və İtaliyaya baxış" və "Rəqabətli strategiyalar üçün bugünün və sabahın ssenarisi" mövzusunda 48-ci Beynəlxalq Çernobbio Forumundan sonra xarici kütləvi informasiya vasitələrinin suallarını cavablandıran Prezident İlham Əliyev beş baza prinsipinin nədən ibarət olması barədə deyib: "Birincisi, hər iki ölkənin ərazi bütövlüyünün tanınması, ikincisi, qarşılıqlı olaraq hər hansı ərazi iddialarından imtina, üçüncüsü, güc tətbiq etməmək və ya güclə hədələməmək, dördüncüsü, sərhədlərin delimitasiyası və beşincisi, kommunikasiyaların açılması.

Bunlar Azərbaycan tərəfindən Ermənistana təklif olunmuş beş baza prinsipidir və Ermənistanın baş naziri onları qəbul edib. Bu, bir daha iki gün bundan əvvəl bizim Brüsseldəki görüşümüzdə təsdiq edilib. Bizim xarici işlər nazirləri həmin beş prinsip əsasında sazişin mətni üzərində praktiki danışıqlara başlayacaqlar".

## Azərbaycanın məqsədi bölgədə sülhün təmin olunmasıdır

Beləliklə, sonuncu Brüssel görüşünün mühüm məqamlarından biri Azərbaycanla Ermənistan arasındakı münasibətləri nizamlayacaq sülh müqaviləsinə dair işlərin sürətləndirilməsi ilə bağlı razılığa gəlinməsidir. Bunun üçün Ermənistana təqribən iki il lazım gəldi. Görünən odur ki, Azərbaycanın yürütdüyü siyasət Ermənistanı sülhə məcbur edir. İrəvanın rəsmi dairələri də yaxşı anlayırlar ki, başqa yolları yoxdur.

Görüşdə sərhədlərin delimitasiyası, kommunikasiyaların açılması və bununla bağlı Ermənistanın öhdəliyi, işğaldan azad edilmiş ərazilərin minalardan təmizlənməsi, Birinci Qarabağ müharibəsində itkin düşən Azərbaycan vətəndaşları ilə əlaqədar və digər humanitar məsələlərlə bağlı irəliləyişin əldə olunması istiqamətində aparılan mühüm müzakirələr bütövlükdə prosesin müsbət dinamika ilə inkişaf etdiyini deməyə əsas verir.

Azərbaycanın məqsədi bölgədə sülhün təmin olunmasıdır. Bu istiqamətdə müzakirələrdən boyun qaçırması, öhdəliklərini yerinə yetirməməsi, üçtərəfli razılaşmaların tələb etdiyi prosesləri ləngitməsi İrəvanın sülh prosesinə destruktiv yanaşması olacaq. Bu cür gedişat isə Ermənistan üçün yaxşı heç nə vəd etmir.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Ərzaq təhlükəsizliyinin təmin edilməsi strateji vəzifədir

Dünyada baş verən hadisələr - iqlim dəyişiklikləri, müharibələr, dövlətlərarası münasibətlərin kəskinləşməsi, ağır xəstəliklərin yayılması, əhalinin artımı və digər səbəblər insanların ərzağa, xüsusilə kənd təsərrüfatı məhsullarına olan tələbatını artırır.

Ciddi çətinlikləri, dünya əhalisinin 800 milyondan çoxunun aclıqdan əziyyət çəkdiyini və 1,5 milyard insanın aclıq riski ilə üz-üzə qaldığını nəzərə alsaq, onda ərzaq təhlükəsizliyinin təmin olunmasında hər bir dövlətin, vətəndaşın məsuliyyətinin nə qədər ciddi olduğunu aydın qiymətləndirə bilərik.

Azərbaycan da bu çətinliklərdən kənarda deyil və yaranmış vəziyyət daim müzakirə obyekti olmaqla problemlərin aradan qaldırılması üçün qabaqlayıcı tədbirlər görülür. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ərzaq təhlükəsizliyi məsələsini daim diqqətdə saxlayır, vəziyyətdən çıxış yolları axtarılır, taxıl ixrac edən ölkələrlə əlaqələr yaradılır, ölkədə ərzaqlıq buğdaya olan tələbatın ödənilməsi üçün yeni layihələr həyata keçirilir.

Vahid proqramlar əsasən buğda əkini sahələrinin genişləndirilməsinə, suvarma sistemlərinin təkmilləşdirilməsinə, yeni texnologiyaların tətbiqinə, aqrotexniki tədbirlərin səmərəliyinə, fermerlərin əməyinin stimullaşdırılmasına, toxumçuluq təsərrüfatlarının yaradılmasına, kadr hazırlığına və ilbəil məhsuldarlığın yüksəldilməsinə istiqamətləndirilmişdir.

Azərbaycan Prezidenti hökumətin hesabatlarında, müşavirələrdə, regionlara səfəri zamanı çıxışlarında ərzaq təhlükəsizliyini və aqrar sektordakı vəziyyəti daim ön plana çəkməklə bu sahədəki uğurları və çətinlikləri ətraflı təhlil edir, dəyərli təkliflərini, tapşırıqlarını verir. Çünki hər il dünyada taxıl istehsalı on milyon tonlarla azalır ki, bu da ərzağın qiymətlərinin artırılmasına səbəb olur. Nəticədə yalnız iqtisadi deyil, həm də ciddi sosial problemlər yaranır.

Dövlətimizin rəhbəri dünyada baş verən hadisələri, ölkəmizdə mövcud olan vəziyyəti, taxıl istehsalı sahəsində durumu qiymətləndirərkən bildirib: "Heç vaxt tarixdə - sovet dönəmində və müstəqillik dövründə bu rəqəmlərə biz çıxmamışıq. Amma yenə də özümüzü biz hələ ki, təmin edə bilmirik və xüsusilə buğda ilə. Biz təqribən 2,3 - 3,4 milyon ton buğda istehlak edirik. Onlardan cəmi 2 milyonu Azərbaycanda istehsal edilir. Qalanlarını idxal edirik və mən əgər bu gün desəm ki, biz 100 faiz özümüzü ərzaq buğdası ilə təmin edə bilərik, yəqin ki, indiki şəraitdə səhv olar. Ancaq çalışmalıyıq ki, yerli istehsal artsın, ilk növbədə məhsuldarlıq hesabına".

Bu gün dünyada istehsalın artırılmasına əsasən məhsuldarlıq hesabına nail olunur. Belə ki, bir çox ölkələrdə buğda istehsalı hər hektardan 70-80 sentnerə çatdırılır. Bu baxımdan ölkə rəhbərinin qeyd etdiyi kimi, məhsuldarlığın artırılması ən düzgün yoldur. Bunun Azərbaycanda da əyani nümunələri vardır. Ölkədə elə iri fermer təsərrüfatları var ki, onlar aqrotexniki qaydaları lazımi qaydada tətbiq etməklə hektarda məhsuldarlığı 60-70 sentnerə çatdırmağa nail olurlar. Ancaq əksər, xüsusilə orta və kiçik təsərrüfatlarda bu rəqəm 30-31 sentnerdən yüksək deyil və bu da respublika üzrə ümumi göstəricilərə mənfi təsir edir.

Azərbaycanın özünü buğda ilə təminetmə əmsalı ilin əvvəlinə 62 faiz olmuşdur. Vəziyyəti daha da yaxşılaşdırmaq, ərzaqlıq buğdaya olan tələbatı müəyyən qədər ödəmək məqsədilə dövlət başçısı tərəfindən fərmanlar imzalanıb, göstərişlər əsasında xüsusi proqram hazırlanıb. Yaxın 3-4 il ərzində ölkəni ərzaqlıq buğda ilə 80 faiz təmin etmək başlıca vəzifə kimi qarşıya qoyulub. Bu, çətin olsa da, ancaq məsuliyyətli və şərəfli bir vəzifədir.

Prezident İlham Əliyevin bu ilin iyul ayında imzaladığı "Ərzaqlıq buğda ilə özünütəminetmə səviyyəsinin yüksəldilməsinə dair bir sıra tədbirlər haqqında" fərman məhz bu çətin və həm də icrası mümkün olan vəzifənin həyata keçirilməsinə xidmət edir. Sənəddə bir daha qeyd olunur ki, ölkəmizdə ərzaq təhlükəsizliyinin təmin edilməsi, o cümlədən əsas ərzaq məhsulları ilə özünütəminetmə səviyyəsinin yüksəldilməsi bu gün aqrar sektorun qarşısında duran əsas vəzifələrdəndir.

Fərmanda qarşıya qoyulan vəzifələr bir daha göstərir ki, ölkədə ərzaqlıq buğda istehsalını artırmaq məqsədilə aqrar sahəyə dövlət dəstəyi mexanizmləri təkmilləşdirilir və beynəlxalq təcrübəyə əsaslanan dəstək tədbirləri həyata keçirilir. Bu mexanizm taxılçılıq sahəsində çalışanların əməyini təşviq etmək məqsədinə xidmət edir.

Son illər dövlət rəhbərinin tapşırıqları əsasında ölkəmizdə kənd təsərrüfatının inkişafı sahəsində həyata keçirilən mühüm tədbirlər, formalaşdırılmış böyük potensial, xüsusilə müasir texnologiyaların tətbiqinə əsaslanmaqla iri taxılçılıq təsərrüfatlarının yaradılması, həmçinin uzun illər işğal altında olan torpaqların işğaldan azad edilməsi ölkənin ərzaqlıq buğda ilə yeni hədəflərinin müəyyən edilməsinə imkan verir.

Fərmanda üç hədəf əsas məqsəd kimi qarşıya qoyulur: "Birincisi, ərzaqlıq buğda ilə özünütəminat səviyyəsinin yüksəldilməsi, ikincisi, suvarma sistemlərinin tətbiqi, üçüncüsü isə fermerlərin gəlirlərinin artırılması". Bu mexanizm müasir suvarma sistemləri və resurs qoruyucu istehsal texnologiyalarının tətbiqi yolu ilə yerli ərzaqlıq buğdanın istehsalının və məhsuldarlığının artırılmasını ehtiva edir. Bunun üçün ilk növbədə suya qənaət edən müasir suvarma sistemlərinin - pilot suvarmanın təşviqi, daha yüksək məhsuldarlıq üçün müasir texnologiyaları tətbiq edən istehsalçıların stimullaşdırılması nəzərdə tutulur. Belə ki, dövlət pilot suvarma sistemlərinin dəyərinin 40 faizini ödəyir, 60 faizi üçün güzəştli kredit ayırır.



Ərzaqlıq buğda yetişdirənlərə əlavə dəstək tətbiq etməklə dövlət fermerləri məhz bu buğdanın becərilməsinə təşviq edir. Beləliklə, ərzaqlıq buğda istehsalçıları həm əkinə, həm də məhsula görə subsidiya alacaqlar. Yəni pilot suvarma tətbiq edən istehsalçılara Dövlət Ehtiyatları Agentliyinə və un dəyirmanlarına təhvil verdikləri ərzaqlıq buğdaya görə 2023-cü ildən başlayaraq 5 il müddətinə məhsul subsidiyası ödəniləcəkdir.

Həmçinin ərzaqlıq buğda üçün minimum alış qiyməti müəyyən olunacaqdır. Yəni idxal olunan buğdanın qiyməti ölkədə istehsal olunan buğdanın qiymətindən ucuz olduqda, qiymət fərqinin yerli istehsalçılara ödənilməsi nəzərdə tutulur ki, bu da yerli istehsalçıların mənafelərinin müdafiəsi üçün vacibdir.

Prezidentin fərmanı ölkənin taxıl istehsalçıları tərəfindən rəğbətlə qarşılanmışdır. Digər tərəfdən fermerlərə fərmandan irəli gələn vəzifələr, qarşıya qoyulan məqsədlərə nail olmaq üçün icra mexanizmləri, əsasən də kredit və zəmanət mexanizmləri ilə bağlı zəruri məlumatlar verilir. Bildirilir ki, mövcud tələblərə uyğun olan, yəni mülkiyyətindəki torpaq sahəsi 50 hektardan çox olan sahələrdə müasir suvarma sistemləri qurulmuş, əraziləri vahid massivdə yerləşən, istehsal etdiyi ərzaqlıq buğdanı dövlət tədarükü qiymətinə Dövlət Ehtiyatları Agentliyinə və un dəyirmanlarına təhvil vermək istəyən fermerlər Kənd Təsərrüfatı Nazirliyi ilə müqavilə imzalamaq üçün müraciət etməlidirlər.

Əkin subsidiyası taxıl əkilmiş sahələrin miqyasına, hektarına görə verilir. Beləliklə, fermerlər əkin subsidiyası ilə yanaşı, dövlətə təhvil verdikləri ərzaqlıq buğdanın tonuna görə də əlavə olaraq məhsul subsidiyası alacaqlar.

Qəbul olunmuş qanunlar, imzalanmış fərman və sərəncamlardan irəli gələn vəzifələr ərzaq təhlükəsizliyinin təmin edilməsi ilə bərabər, həm də istehsalçıların daha çox gəlir əldə etməsinə yönəldilmişdir. Bu sahədə görülən işlər, yeni metodların, dəstək mexanizmlərinin təşviq edilməsi, taxılçılıqda yeni innovativ texnologiyalar, keyfiyyətli toxum istehsalı, sertifikatlı toxumlardan istifadənin genişləndirilməsi bəzi rayonların timsalında müsbət nəticələrini verir. Hacıqabul, Bərdə, Tovuz, Sabirabad, Tərtər, Ağcabədi rayonlarının taxılçıları bu il becərdikləri taxıl sahələrinin hər hektarından 40 sentnerdən çox məhsul əldə etmişlər ki, bu da respublika üçün yaxşı göstəricidir.

Ancaq çox təəssüflər olsun ki, bəzi rayonlarda məhsuldarlıq nəinki ölkə səviyyəsində, ondan da xeyli aşağı olmuşdur. Respublikanın iri taxılçılıq rayonlarından sayılan Şəkidə hər hektardan cəmi 18,3 sentner məhsul götürülmüşdür ki, bu da belə bir dövrdə qənaətləndirici sayıla bilməz. Şamaxı, Xızı və bəzi rayonlarda isə məhsuldarlıq 20 sentnerə belə çatdırılmamışdır. Əlbəttə, belə hallar respublika üzrə məhsuldarlığa ciddi təsirini göstərmişdir.

Taxıl əkmək, becərmək, toplamaq, çörəyə çevirmək əsas şərt olsa da, bu müqəddəs nemətdən səmərəli, qənaətlə istifadə etmək daha vacibdir. Məlum olduğu kimi, Rusiya ilə Ukrayna arasında davam edən müharibə bu ölkələrdən taxıl, xüsusilə ərzaqlıq buğda idxalını xeyli çətinləşdirmişdir.

Azərbaycan Prezidenti ölkə əhalisinin ərzaq təhlükəsizliyini təmin etmək üçün bu gün bütün imkanları nəzərdən keçirir, lazımi tədbir görür. Hətta başqa ölkələrdə torpaq icarəyə götürüb taxıl yetişdirməyin yolları gündəmə gətirilir, gələcək perspektivlər qiymətləndirilir. İşğaldan azad olunmuş torpaqların minadan təmizlənib əkin dövriyyəsinə daxil edilməsi, 100 min hektar sahədə taxıl əkilməsi məqsəd kimi qarşıya qoyulur.

Ərzaq təhlükəsizliyinin təmin olunmasında dövlətlə bərabər, hər bir sahibkarın, vətəndaşın da üzərinə məsuliyyət düşür. İnsanlarımız dünyada baş verən hadisələrə - ərzaq qıtlığına, bahalaşmaya ciddi yanaşmalıdırlar. Bütün məsuliyyəti dövlətin üzərinə atmaq düzgün deyil.

Kiçik və orta sahibkarlar, taxıl istehsalçıları öz torpaqlarını birləşdirməklə geniş sahələrdə taxıl əkilməsini mütləq həyata keçirməlidirlər. Bu, sudan, texnikadan, digər resurslardan səmərəli istifadə etməyə, məhsuldarlığı artırmağa, vaxta qənaət etməyə, sahələrin daha keyfiyyətlə, aqrotexniki qaydada becərilməsinə, məhsulun qorunmasına və vaxtında toplanmasına, pul gəlirlərinin artırılmasına imkan yaratmış olar. İri taxılçılıq təsərrüfatlarının əldə etdiyi nəticələr bunu deməyə əsas verir.

Dövlət rəhbərinin dediyi kimi, əgər iri təsərrüfatlarda hər hektardan 60-70 sentner götürülürsə, bu, kiçik təsərrüfatlarda 30 sentnerdən yuxarı olmur. Belə olan halda sahibkarlar həm məhsuldarlığın yüksəldilməsi, həm də gəlirlərin artırılması barədə ciddi düşünməli, öz işlərini müasir tələblər, qabaqcıl təcrübələr əsasında qurmalıdırlar.

Taxılçılığın inkişaf etdirilməsinin başlıca yollarından biri də keyfiyyətli, məhsuldar buğda sortlarının yetişdirilməsidir. Ölkəmizin iqlim şəraitinə, torpaqlarımızın məhsuldarlığına uyğun belə toxum sortlarının yetişdirilməsinə başlanılsa da, bunu hələ ki, uğurlu hesab etmək olmaz. Kənd Təsərrüfatı Nazirliyi artıq bu sahədə sistemli tədbirlərin həyata keçirilməsinə start vermişdir. Regionlarda keçirilən toxum sərgi-satış yarmarkaları, toxumçuluqla bağlı sahibkarlarla aparılan söhbətlər, maarifləndirmə tədbirləri istehsalçılar tərəfindən yaxşı qarşılanır və bu, sözsüz ki, öz müsbət nəticələrini göstərəcəkdir. Çörək əsas ərzaq məhsuludur. Bu müqəddəs nemət min bir zəhmət bahasına başa gəlir və təəssüf ki, onun istehlakına bir çox hallarda laqeyd yanaşılır. Bəzən ondan israfçılıqla istifadə edilir. Adambaşına ən çox çörək istehlak edən və ən çox israfçılığa yol verən ölkə kimi nöqsanlarımızı hesaba çəksək, ərzaq təhlükəsizliyimizə nə qədər ziyan vurduğumuzu aydın dərk edərik. Hər gün şadlıq evlərində, restoranlarda, ictimai iaşə obyektlərində, toy və yas mərasimlərində, kütləvi tədbirlərdə, ailələrdə israf edilən on tonlarla çörəyin hesabatını aparsaq, əlbəttə ki, dəhşətli rəqəmlərlə qarşılaşarıq. Bu, yüz min tonlarla hesablanır və qətiyyən yolverilməzdir. Ağıllı insan yaşadığı ərazidə hər gün xeyli miqdarda çörəyin tullantıya çevrildiyini görəndə düşünməlidir, ürək ağrısı keçirməlidir. Un məhsullarına münasibət də belədir və bizə həyat verən, dünyanı çıxılmaz vəziyyətdə qoyan ərzağa - una, çörəyə belə yanaşma əsl məsuliyyətsizlikdir.

Azərbaycan Prezidenti və hökuməti ölkədə ərzaq təhlükəsizliyinin təmin olunması üçün bütün qabaqlayıcı tədbirləri görür və bu səbəbdən də ölkə vətəndaşları bu günə kimi ciddi problemlərlə üz-üzə qalmamışlar. Ancaq çörəyin qiymətinin nisbətən artması, bir çox ərzaq məhsullarının bahalaşması, dünyada ərzaqlıq buğdaya, una olan tələbatın çoxalması və ərzaq məhsullarının idxalının çətinləşməsi gələcək barədə ciddi düşünməyi tələb edir. Bu, hər bir insanı narahat etməli və hər bir vətəndaş ərzaq təhlükəsizliyinin təmin edilməsində öz vəzifəsini dərk edib qiymətləndirməlidir.

***Tahir RZAYEV,***
***Milli Məclisin Aqrar siyasət komitəsinin sədri***

# İrəvanda mühacirət dalğası getdikcə böyüyür

## Son bir ildə Ermənistanı bir milyondan çox insan tərk edib

Dünya iqtisadiyyatında yaşanan tənəzzüldən ən çox təsirlənən ölkələrdən olan Ermənistanda sosial vəziyyət getdikcə ağırlaşır. Hakimiyyətin böhrandan xilas üçün heç bir plana malik olmaması, iqtisadiyyatın iflic vəziyyətinə düşməsi ölkədəki mövcud durumu daha da ağırlaşdırır.

Artıq sadə ermənilər arasında belə bir fikir hakimdir ki, Ermənistanda qalıb yaşamağın mənası yoxdur. Elə bu səbəbdən də miqrasiya Ermənistanda yenidən geniş vüsət almaqdadır.

Miqrasiyanın dayandırılması üçün Ermənistana edilən yardımlar da nəticə vermir. Avropa İttifaqının Ermənistandakı nümayəndə heyətinin rəhbəri, səfir Andrea Viktorin İrəvanda bildirib ki, bura miqrantlar ölkəsidir. Ermənistanın ən iri donoru olan Avropa İttifaqı ermənilərin öz ölkəsində qalmaları üçün onların hakimiyyətinə kömək etmək istəyir: "Biz gənc ermənilərə ixtisas almaqda kömək etmək, iri proqramlar sayəsində iş yerləri açmaq istəyirik. Lakin xarici təşkilatların gördüyü işlər və etdiyi yardımlar da nəticəsiz qalıb. Ermənistanı tərk edənlərin sayı sürətlə artmaqda davam edir".

"4rd.am" saytı yazır ki, əhalinin 2011-ci ilin siyahıyaalınmasına əsasən, Ermənistanda əhalinin sayı 3 milyon 18 min 900 nəfər, 2022-ci ilin əvvəlində isə 2 milyon 964 min 600 nəfər olub. 2021-ci ildə 2440 cütlük boşanıb, 2022-ci ildə isə ayrılan ailələrin sayı 137 nəfər çoxalaraq 2577 nəfər təşkil edib. Bu ilin ilk 7 ayı ərzində Ermənistanda 16548 nəfər ölüb.

Ölkədəki sosial-iqtisadi vəziyyətin getdikcə kəskin şəkildə pisləşməsi nəticəsində əhalinin sayı sürətlə azalmağa başlayıb. Aparılan araşdırmalardan sonra bəlli olub ki, sosial-iqtisadi duruma görə ailələrdə yeni uşağın doğulmasını istəmirlər. Demoqrafiya üzrə mütəxəssis Ruben Akopyan əhalinin sayının azalmasını 1990-cı ildə ölkədə az uşaq doğulması ilə əlaqələndirib. Lakin əslində ölkə iqtisadiyyatının tənəzzülü, işsizlik problemi, məmurların korrupsiyaya qurşanması və əhalinin əksəriyyətinin yoxsulluğun son həddində yaşaması demoqrafik vəziyyətin pisləşməsinin əsas göstəriciləridir.

O da bildirilib ki, Ermənistan hökuməti 44 günlük müharibədə 3822, müxalifət isə 5 mindən çox hərbçinin öldüyünü vurğulayıb.

Yazıda Ermənistan əhalisinin sayının xaricdən gətirilən ermənilərin hesabına artırıldığına da eyham vurulub: "1948-ci ilədək Ermənistana xaricdən 100 mindən çox erməni köçürülüb. Bu proses sonradan dayandırıldı. Bu istiqamətdə sakitlik yarandı. 1970-ci illərdə də Suriya və Livandan köç edənlər oldu. Xaricdən gələn ermənilərin sayəsində ölkədə yeni səhifə açıldı. Yeni əlaqələr, yeni incəsənət, yeni ideyalar yarandı".

Məqalədə 2100-cü ildə Ermənistan əhalisinin sayının 2 milyonadək azalacağı, 2050-ci ildə Azərbaycan və Türkiyə əhalisinin sayının artacağı da həyəcanla vurğulanıb.

Ümumiyyətlə, Ermənistanda müharibədəki məğlubiyyətdən sonra davamlı şəkildə artan miqrasiyanın bundan sonra daha da artacağı proqnozlaşdırılır. Erməni mətbuatı hazırkı iqtidarın yürütdüyü yarıtmaz siyasət nəticəsində Ermənistanı yaxşı gələcəyin gözləmədiyini anlayaraq, ölkəni tərk edən vətəndaşların sayının ildən-ilə artacağını proqnozlaşdırır. Ölkədə miqrasiyanın yüksək səviyyədə olmasına səbəb isə qeyd etdiyimiz kimi, əhalinin mövcud rejimə inamının azalmasıdır.

Digər tərəfdən o da faktdır ki, mühacirət indiki templərlə davam etsə, ölkənin gələcəyi sual altına düşə bilər. Ölkə rəhbərliyi isə mühacirət dalğasının qarşısını almaq üçün faktiki olaraq heç bir tədbir görmür. Bu səbəbdən də əhali sürətlə azalmağa doğru gedir. Qeyd olunur ki, bu gedişlə ölkədə işçi qüvvəsi qalmayacaq və iqtisadiyyat daha ağır böhrana düçar olacaq, indikindən də pis tənəzzülə uğrayacaq. Çünki gedən miqrantların böyük əksəriyyəti bir daha geri qayıtmır.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# Azərbaycan Ordusunun mövqeləri atəşə tutulub

Sentyabrın 11-i axşam saatlarında Ermənistan silahlı qüvvələrinin bölmələri Azərbaycan-Ermənistan dövlət sərhədinin Çəmbərək rayonunun Cil və Gorus rayonunun Xanazax yaşayış məntəqələri istiqamətlərində yerləşən mövqelərindən ordumuzun Gədəbəy rayonunun Novoivanovka və Laçın rayonunun Hüsülü yaşayış məntəqələri istiqamətlərində yerləşən mövqelərini atıcı silahlardan atəşə tutub.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, bundan başqa, Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazisində olan qeyri-qanuni erməni silahlı dəstələrinin üzvləri tərəfindən Azərbaycan Ordusunun Kəlbəcər rayonunun Ağqaya yaşayış məntəqəsi istiqamətində yerləşən mövqeləri atəşə tutulub.

Ordumuzun bölmələri tərəfindən adekvat cavab tədbirləri görülüb.

# REGİONLAR





## Maşınlar start xəttindədir

### Salyanlı fermerlər bu mövsümdə ümumi məhsulun 90 faizini maşınlarla yığmağı hədəf götürüblər

**Pambıqçıların aylardan bəri gözlədikləri vaxt artıq gəlib çatmışdır. Tarlalarda pambıq qozaları çiçək-çiçək açmağa başlamışdır.**

Bu il də ötən ildə olduğu kimi, yazda havalar nisbətən sərin keçdi. Buna görə də çiyid səpinində, habelə çıxışda müəyyən ləngimə yarandı. Su azlığı ucbatından əkiləcək torpaqlar vaxtında arata qoyulmadı, digər tərəfdən təbiət də öz sərt üzünü göstərdi. Yağış, demək olar ki, yağmadı, quraqlıq keçdi. Lakin torpaq mülkiyyətçiləri, fermerlər ruhdan düşmədilər. Onlar suyun, necə deyərlər, hər damlasından səmərəli istifadə edərək yaranan çətinliyi aradan qaldırmağa müvəffəq oldular. Çiyid cücərib torpaqdan baş qaldıran kimi kultivasiya işi apardılar, bitkilərin inkişafına əngəl törədən alaq otlarını təmizlədilər. Bütün aqrotexniki tədbirləri yüksək keyfiyyətlə həyata keçirdilər. Çəkdikləri zəhmət hədər getmədi. Kollar inkişaf etdi, hər birində lazımi qədər qoza əmələ gəldi.

Avqustda havaların isti keçməsi pambığın yetişkənliyinə öz müsbət təsirini göstərdi. Bəzi sahələrdə qozalar artıq açmağa başlamışdır. Bir neçə gündən sonra həmin yerlər bəmbəyaz dona bürünəcək. Maşınlar çox keçmədən böyük zəhmət bahasına başa gələn "ağ qızıl"ı tarlalardan toplayacaq. "Texnika əkinçinin sağ əlidir" deyənlər yanılmayıblar. Çünki o, insan əməyini yüngülləşdirir. Keçən əsrin ortalarında unudulmaz şairimiz Səməd Vurğun xalqımızın arzusunu ifadə edərək yaratdığı obrazın - pambıqçı qızın dilindən böyük uzaqgörənliklə belə demişdi:

*Ay əmi, o maşın tez gəlsə əgər,*
*Nə qədər sevinər bizim bu ellər.*
*İş görüb, tər tökər bir yandan o da,*
*Vaxtımız çox qalar elmə, savada.*

Bax, indi həmin vaxtdır, pambığı maşınlar yığır, məktəblər sovet dövründə olduğu kimi, pambıq yığımına görə bağlanmır.

Strateji əhəmiyyət kəsb edən bu məhsulun istehsalının artırılması üçün ölkəmizdə bir çox tədbirlər görülmüşdür. Nəticədə o, qeyri-neft sektoru kimi iqtisadiyyatımızın inkişafında mühüm yer tutmaqdadır. Dünya bazarında mahlıcın qiyməti ildən-ilə artır. Bütün bunlar fermerlərə, eləcə də xam pambıq istehsalı və emalı ilə məşğul olan şirkətlərə stimul vermişdir. Bu yaxınlarda pambığın qiymətində yaranan artım da mülkiyyətçiləri həvəsləndirmişdi. Hər bir kəndli, hər bir fermer istəyir ki, əməyi bəhrə versin, gəliri daha çox olsun. Buna görə də yetişdirdikləri məhsulu tez və itkisiz yığmaqdan ötrü maşına üstünlük verirlər.

Məlumat üçün bildirək ki, keçən il Salyanda ümumi məhsulun 87 faizi maşınlarla yığılmışdır. Builki hədəf daha yüksəkdir - məqsəd ötənilki rəqəmi ötüb keçməkdir. Ona görə də pambıq sahələrinə xüsusi qulluq göstərilmişdir. Həmin sahələr alaq otlarından tam təmizlənmiş, bitkilərin bir bərabərdə olması məqsədilə ucvurma işləri aparılmışdır. Axırıncı suvarmadan qabaq çəkilən barazalar kollardakı daban qozalarından başlamış pambığın bütün qozalarını götürməyə imkan verəcək. Bir neçə gündən sonra seçmə üsulu ilə, daha dəqiq desək, arağaş yerlərdə defaliyasiya, yəni yarpaqları tökmək üçün dərmanlama işlərinə başlanılacaq. "MKT-İK" MMC, "P-Aqro" MMC və "Azərpambıq" MMC-nin rayonda fəaliyyət göstərən filiallarında bu tədbiri həyata keçirməkdən ötrü kifayət qədər preparat və çiləyici texnika var. Dərmanlama aparılan sahələrdə 10-12 gündən sonra maşınlar sahələrə çıxarılacaq.

Cari ildə Salyan rayonu üzrə 9 min 285 hektarda pambıq əkilmişdir. Bu, keçənilkinə nisbətən 3 min hektardan da artıqdır. Deməli, bu il məhsul daha çox olacaq. Buna görə rayona daha 13 "Conder-İD-9970" markalı pambıqyığan maşın gətirilmiş, maşınların sayı 45-ə çatdırılmışdır. Yığılan məhsulun sahələrdən tədarük məntəqələrinə daşınması üçün 50 "MTZ-80" traktoru və 100-dən artıq lafet pambıqyığan maşınlarla birlikdə start xəttində dayanmışdır. Həm də texnikalar saz vəziyyətə gətirilmişdir.

Bütün bunlar deməyə əsas verir ki, salyanlı fermerlər bu il daha çox "ağ qızıl" istehsal edərək respublika üzrə üç il dalbadal qazandıqları birinciliyi əldən verməyəcəklər.

***Seyran CAVADOV,***
***"Azərbaycan"***

# Qax lövhələri

**Doğma Azərbaycanımızın hər yanı gözəldir. Son illər dövlət başçısının xüsusilə önəm verdiyi genişmiqyaslı tikinti-abadlıq və quruculuq işləri sayəsində rayon və şəhərlərimizdən bir çoxu, sözün əsl mənasında, daha da gözəlləşmişdir. Barəsində ürəkdolusu danışılası belə rayon və şəhərlərimizin biri də Qax rayonudur.**







Qaxın təbii gözəllikləri var. Bunu çoxları öz gözü ilə təkrar-təkrar görüb. Füsunkar təbiəti ilə yanaşı, bu diyarı insanlara, o cümlədən çoxsaylı turistlərə sevdirən, cəlbedici edən həm də oradakı qədim Azərbaycan dövləti olan Albaniyanın hərbi-siyasi və dini-mənəvi həyatından xəbər verən möhtəşəm tarixi tikililərdir. Hansı ki həmin abidələr haqqında həm jurnalist, həm də Albaniya tarixinin tədqiqatçısı olaraq çox yazılarım olub. Əslində, bir neçə gün öncə Qax rayonuna olan növbəti səfərim də məhz oradakı alban məbədlərinin son durumunu öyrənmək idi. Bu dəfə Qaxda gördüklərim, müşahidə etdiklərim, şahidi olduqlarım məndə, sözün əsl mənasında, heyranlıq duyğuları yaratdı.

Əvvəlcə Qaxın yolları barədə. Son onilliklərədək rayon mərkəzini "Pavilyon" deyilən ərazi ilə birləşdirən magistral yoldan başqa, Qaxın bütün yolları bərbad halda idi. Antik dönəmdə və Orta əsrlərdə belə intensiv ticarət yolu hesab edilən köhnə Qax-Şəki və Qax-Zaqatala yolları uzun illər idi, demək olar ki, işləmirdi. Rayon mərkəzi ilə kəndləri birləşdirən yollar da acınacaqlı vəziyyətdə idi. 1897-ci ildə çar hökumətinin sifarişi ilə alman mütəxəssislərinin Kürmük çayı üzərində saldıqları dəmir körpüdən savayı, çaylardan heç birinin üzərində etibarlı körpü yox idi. Odur ki, hər dəfə rayon ərazisindən keçən çoxsaylı dağ çayları daşanda hər tərəflə əlaqə kəsilirdi. XVIII əsrdə yerli usta Ömər tərəfindən Arran memarlıq məktəbi üslubunda inşa edilmiş Ulu körpü olmasaydı, yəqin ki, İlisu və Sarıbaş camaatının nəinki rayon mərkəzi, ümumiyyətlə, ətraf aləmlə əlaqəsi tam olaraq üzülərdi. Bu gün isə tək Kürmük çayı üzərində mənim bildiyimə görə, ən azı 4-5 yerdə müasir və dayanıqlı körpülər var. Qax şəhərini kəndlərlə, habelə qonşu rayonlarla birləşdirən yüksəkkeyfiyyətli asfalt yollar da ölkə rəhbərliyinin ən ucqar rayonların infrastrukturunun yenilənməsinə və inkişafına olan diqqət və qayğısının göstəricisi kimi dəyərləndirilməlidir.

Qax bu gün respublikanın ən çox turist axını olan rayonlarından biridir. Doğrusu, son günlər Qax şəhərində, İlisu və Ağçay vadilərindəki çoxsaylı istirahət məkanlarında seyr etdiyimiz izdiham, sözün əsl mənasında, heyrətləndirir.

Qax şəhərinin tarixi hissəsi hesab edilən İçqala ərazisini gəzərkən insan həm qəlbən rahatlanır, həm də qürurlanır. Artıq şəhərin digər küçə və meydanları da təqribən həmin üslubda yenidən qurulur. Parklar və yaşıllıqlar tam olaraq ictimai nəvazişlə əhatə olunub. Davamlı olaraq suvarıldığından, hətta son günlərin şiddətli istiləri belə şəhərdəki ağacların və yaşıllıqların rənginə təsir edə bilməyib. Bunun nəticəsidir ki, Qax şəhəri bütövlükdə yaşıllıqlara bürünüb.

Bütün bu gözəlliklər rayon iqtisadiyyatının sürətli və hərtərəfli inkişafı, ənənəvi təsərrüfat sahələrinin zamanın çağırışları ruhunda yenidən qurulması fonunda baş verməkdədir. Rayonda heyvandarlıq, arıçılıq, taxılçılıq, bitkiçilik, baramaçılıq və digər təsərrüfat sahələri getdikcə daha artıq intensiv əsaslar üzərində inkişaf etdirilməkdədir. Qaxın ekoloji cəhətdən təmiz kənd təsərrüfatı məhsulları, o cümlədən Qax balı, Qax pendiri, Qaxın süfrə suları artıq çoxdandır ki, həm xarici, həm də yerli turistlər üçün brend məhsullara çevrilib.

Prezident İlham Əliyev 2018-ci il oktyabrın 28-də Qax aqroparkında olarkən rayonla bağlı fikirlərini belə ifadə etmişdi: "…Bir il bundan əvvəl buralar boş torpaq idi, heç nə bitmirdi, heç bir iş görülmürdü. İndi baxanda göz oxşayır. Qarlı dağlar və gözəl meşə zolağı, o meşə zolağı ki, bar gətirəcək və Azərbaycan vətəndaşları bundan istifadə edəcəklər".

2017-ci ildə Ağyazı qış otlaqları ərazisində əsası qoyulan və 2094 ha sahəni əhatə edən Qax aqroparkında cəmisi bir il sonra 100 nəfər daimi və 100 nəfər mövsümi işçi çalışırdı. Bu mövsümi isə sahələrdə yetişdirilmiş bol şaftalı, badam, alma, armud və üzüm məhsulunu toplamaq üçün hər gün orta hesabla 300 nəfər insan işə çıxır. Gün ərzində orta hesabla 100 ton şaftalı toplanılır. 3-4 il əvvəl salınmış və ucu-bucağı görünməyən badam bağları bu il o qədər bar gətirib ki, ağırlıqdan ağacların budaqları yerə dəyir. Aqroturizmin inkişafını təmin etmək məqsədilə aqroparkda xüsusi bir ərazi ayrılıb. Orada, demək olar ki, yerli şəraitə uyğun olan bütün növlər cərgə ilə əkilib. Əraziyə daxil olan turist həm oradakı bitki növlərini, onların necə becərildiyini və inkişaf etdiyini öz gözləri ilə müşahidə edəcək, həm də meyvələrdən dadmaq və hətta onları almaq imkanı olacaqdır.

***Qafar CƏBİYEV,***
***Əməkdar jurnalist,***
***tarix elmləri doktoru,***
***professor***

# Əhalinin məşğulluğunun təmin olunması diqqət mərkəzindədir



Daşkəsəndə əhalinin məşğulluğunun təmin edilməsi istiqamətində görülən işlərin müzakirəsinə həsr olunmuş yığıncaq keçirilmişdir.

Yığıncağı giriş sözü ilə rayon icra hakimiyyəti başçısının müavini, icra hakimiyyəti yanında məşğulluğa kömək üzrə əlaqələndirmə şurasının sədri Vüqar Məmmədov açaraq cari ilin ötən dövrü ərzində 45 nəfərlə yeni əmək müqaviləsi bağlandığını bildirmişdir. Hazırda rayonun 35545 nəfər əhalisinin 20300 nəfəri məşğul əhali hesab olunur. Aktiv əmək müqaviləsinə görə işçilərin sayı 2619 nəfər, aktiv məşğul əhali 4085 nəfər təşkil edir. Rəsmiləşdirilməyən məşğul əhali 16215 nəfər, yəni məşğul əhaliyə nisbətdə 79,9 faizdir.

Dövlət vergi xidmətinin məlumatına görə, hazırda 1434 nəfər fərdi sahibkar kimi qeydə alınmışdır. Aktiv məşğul əhalinin 3220 nəfəri, yəni 78,82 faizi qeyri-kənd təsərrüfatı sahəsində çalışanlardır.

V.Məmmədov onu da qeyd etmişdir ki, 2022-ci ilin yanvar-iyun ayları ərzində Daşkəsən rayonunda mövcud müəssisə və təşkilatlarda 53 yeni iş yeri açılmışdır. 2022-ci ilin yanvar-may aylarında rayonda muzdla çalışan işçilərin orta aylıq nominal əməkhaqqı əvvəlki ilin müvafiq dövrünə nisbətən 28,8 faiz artaraq 872,7 manata çatmışdır. Mədənçıxarma və emal sənayesində, maliyyə və sığorta, eləcə də elektrik enerjisi və qaz təsərrüfatında çalışanların orta aylıq nominal əməkhaqqı daha yüksək olmuşdur.

Gəncə-Daşkəsən Regional Məşğulluq Filialının müdir müavini Rafət Məmmədov çıxış edərək bildirmişdir ki, qarşıda duran vacib məsələlərdən biri ərazidə qeyri-formal məşğulluğun qarşısının alınmasıdır. Qeyri-formal məşğulluq əmək bazarının tənzimlənməsinə, vergi, sosial sığorta və digər məcburi ödənişlərin həyata keçirilməsinə, işçilərin gələcək sosial təminat hüquqlarına malik olmasına ciddi maneə yaradır.

Dövlət Əmək Müfəttişliyi Xidmətinin Gəncə-Daşkəsən regional şöbəsinin rəis müavini Rüstəm Rüstəmov və 12 saylı Ərazi Vergilər İdarəsinin monitorinq şöbəsinin əməkdaşı Şəmsur Cəbrayılov çıxışlarında qeyri-formal məşğulluğun qarşısının alınması üçün sahibkarlıq sahəsində fəaliyyət göstərən obyektlərdə mütəmadi reydlərin keçirildiyini və sahibkarlarla maarifləndirmə işlərinin aparıldığını qeyd etmişlər.

Yığıncaqda Daşkəsən Rayon İcra Hakimiyyəti yanında məşğulluğa kömək göstərən əlaqələndirmə şurasının işinin səmərəli təşkil edilməsi, rayonda qeyri-rəsmi məşğulluğun qarşısının alınması, rəsmiləşdirilməyən əmək münasibətləri və bu işdə mövcud olan problemlərin aradan qaldırılması, aidiyyəti dövlət qurumları ilə qarşılıqlı fəaliyyət və digər məsələlər ətrafında geniş müzakirələr aparılmışdır.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***



## Ağstafanın Tatlı kəndində həkim məntəqəsi istifadəyə verilmişdir

Ağstafanın Tatlı kəndinin həkim məntəqəsi əsaslı təmirdən sonra istifadəyə verilmişdir. Beynəlxalq Qızıl Xaç Komitəsinin (BQXK) Azərbaycandakı nümayəndəliyi tərəfindən təmir olunan həkim məntəqəsində xəstələrə yüksək səviyyədə tibbi xidmət göstərilməsi üçün hər cür şərait yaradılmışdır.

Ağstafa Rayon İcra Hakimiyyətinin başçısı Seymur Orucovun, Beynəlxalq Qızıl Xaç Komitəsinin Azərbaycandakı nümayəndəliyinin əməkdaşları Oskar Danilon Garcianın və Ruqiyyə İbrahimlinin, eləcə də kənd sakinlərinin iştirakı ilə keçirilən açılış mərasimində çıxış edənlər son illər Azərbaycan səhiyyəsində həyata keçirilən yeniliklərdən danışmış, kənddə əsaslı şəkildə təmir olunan həkim məntəqəsini buna misal göstərmişlər. Qeyd etmişlər ki, ümumi sahəsi 165 kvadratmetr olan məntəqədə əhaliyə yüksək tibbi xidmətin göstərilməsi üçün müasir tipli peyvənd, manipulyasiya, inzibati, müşahidə və qəbul otaqları mövcuddur. Bina həmçinin mərkəzi istilik sistemi ilə təchiz edilmişdir.

***S.ƏLİYEV,***
***"Azərbaycan"***



# Lənkəran teatrı yeni mövsümə başlayır



Lənkəran Dövlət Dram Teatrı sentyabrın 16-da özünün 132-ci mövsümünə başlayacaq. Həmin gün sənətsevərlərə teatrın baş rejissoru Anar Babalının qələmə aldığı və quruluş verdiyi "Haqqın 44 günü" tamaşası təqdim olunacaq.

Bu səhnə əsəri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2022-ci ili "Şuşa ili" elan etməsi ilə əlaqədar nəzərdə tutulmuş tədbirlər planı çərçivəsində hazırlanıb. Vətən müharibəsində 44 gün ərzində qazanılmış böyük zəfərimizin qəhrəmanlıq dastanı kimi təqdim olunduğu tamaşada Birinci və İkinci Qarabağ müharibələrində baş verən hadisələr, xalqımızın igid oğullarının döyüşlərdə göstərdiyi şücaətlər obrazlı şəkildə əksini tapıb.

Tamaşada həmçinin müharibələrin xalqların taleyində, gündəlik həyat və məişətində yaratdığı çətinliklərdən, ağrı-acılardan da bəhs olunur. Bütün bunlarla yanaşı, əsərdə Müzəffər Ordumuzun özünün yüksək əhvali-ruhiyyəsi ilə əzmkarlıq nümayiş etdirərək 30 ilə yaxın müddətdə işğal altında qalmış torpaqlarımızı cəmi 44 gün müddətində düşmən tapdağından xilas edərək üzərinə düşən missiyanın öhdəsindən ləyaqətlə gəlməsindən bəhs olunur.

Tamaşanın quruluşçu rəssamı Adil Əsədli, musiqi tərtibatçısı Fərahim Fərəcovdur.

Əsas rolları gənc aktyorlardan Sayad Əliyev, Emil Rzayev, Gülər Kərimova, Şəbnəm Hüseynova, Aysel Cahangirova, Amil İbrahimov, Teymur Hacızadə və Günel Abbaszadə ifa edirlər.

Teatr "Haqqın 44 günü" tamaşası ilə cari ilin dekabrında İranda keçiriləcək "Sahibdelan" 12-ci Beynəlxalq Mistik Teatr Festivalında Azərbaycanı təmsil edəcək.

Bundan əlavə, bu tamaşanın Astara, Biləsuvar və digər rayonlarda da nümayiş etdirilməsi nəzərdə tutulub. İlin sonuna kimi Lənkəran sənətsevərləri Xalq yazıçısı Kamal Abdullanın "Casus", yazıçı-dramaturq İlqar Fəhminin "Qanlı namə" və mərhum yazıçı Məmmədhüseyn Əliyevin "Prokuror" tamaşalarına da baxa biləcəklər.

Hazırda hər üç səhnə əsərinin məşqləri davam etdirilir.

***Ağaddin BABAYEV,***
***Lənkəran***

## Yeni dərs ili qarşısında

# Şəmkirdəki məktəb-lisey yeni dərs ilinə hazırdır

**Prezident İlham Əliyevin imzaladığı dövlət proqramlarından, fərman və sərəncamlardan irəli gələn vəzifələrin reallaşması nəticəsində ölkəmizin bütün bölgələri kimi, Şəmkir rayonu da sosial-iqtisadi inkişaf istiqamətində böyük uğurlar qazanır.**



Aparılan abadlıq-quruculuq və yenidənqurma işləri sakinlərin rahatlığını təmin etməklə yanaşı, şəhərin simasını da tamamilə dəyişir. Görülən işlərdə tədris ocaqlarının yenilənməsi də diqqət mərkəzində saxlanılır. Hazırda rayonda bu istiqamətdə bir çox layihə həyata keçirilir. Belə layihələrdən biri də Prezidentin sərəncamına əsasən, Təhsil Nazirliyinə ayrılan vəsait hesabına Məhəmməd Füzuli adına təbiət və humanitar fənlər təmayüllü tam orta məktəb-lisey üçün tikilən yeni binadır.

5 korpusdan ibarət olan binanın iki tədris korpusu 4, digər üç korpusu isə 3 mərtəbəlidir. 1600 şagird yerlik məktəb binasında akt və idman zalları, laboratoriya, müəllim və şagirdlər üçün yeməkxana, oyun meydançası inşa edilmişdir.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

# Tərtərdə tələbə adı qazanan gənclərlə görüş

Tərtər rayonunda Dövlət İmtahan Mərkəzinin keçirdiyi qəbul imtahanlarında yüksək nəticə göstərərək ali məktəblərə qəbul olan gənclərlə görüş keçirilib.



Əvvəlcə tədbir iştirakçıları Ulu Öndər Heydər Əliyevin abidəsinin önünə gül-çiçək dəstələri qoyaraq xatirəsini ehtiramla anıblar.

Sonra tədbir rayon mədəniyyət mərkəzində davam etdirilib. Tədbir iştirakçıları öncə ərazilərimizin bütövlüyü uğrunda həlak olan şəhidlərimizin xatirəsini birdəqiqəlik sükutla yad ediblər.

Tərtər Rayon İcra Hakimiyyətinin başçısı Müstəqim Məmmədov tələbə adını qazanan gəncləri təbrik edib, onlara təhsildə və gələcək həyatda uğurlar arzulayıb, yüksəkbilikli mütəxəssis kimi yetişməyi və Vətənə ləyaqətlə xidmət göstərməyi tövsiyə edib. Rayon icra hakimiyyətinin başçısı ölkəmizdə təhsilin inkişafı, onun maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində görülən işlərdən, həyata keçirilən layihələrdən söz açıb. Bildirib ki, Ulu Öndər Heydər Əliyev ölkəyə rəhbərlik etdiyi bütün dövrlərdə təhsilə və onun inkişafına böyük diqqət yetirib. Prezident İlham Əliyev də bu ənənələrə sadiq qalaraq təhsilin inkişafını həmişə diqqətdə saxlayır, bu istiqamətdə mühüm tədbirlər həyata keçirir. Dövlət və Heydər Əliyev Fondu tərəfindən yeni məktəblər, uşaq bağçaları, liseylər tikilir, məktəblərin maddi-texniki bazası gücləndirilir.

M.Məmmədov Prezident İlham Əliyevin Tərtər rayonuna 3 iyun 2020-ci il tarixli səfərindən sonra "Tərtər rayonunun Xoruzlu kəndində yeni ümumtəhsil məktəbinin tikintisi ilə bağlı tədbirlər haqqında" sərəncam imzaladığını, artıq yeni dərs ilində şagirdlərin yeni tikilmiş 432 şagird yerlik yeni binada təhsil alacağını, şəhər 5 saylı tam orta məktəb üçün 360 şagird yerlik yeni bina inşa edildiyini minnətdarlıqla vurğulayıb. Qeyd edib ki, rayonda təhsilin keyfiyyətinə göstərilən diqqət və qayğının nəticəsidir ki, bu il ali təhsil ocaqlarına sənəd verən 420 nəfərdən 302-si ali, 46 nəfər isə orta ixtisas məktəblərinə daxil olub. Bu il ali məktəbə daxil olanların sayı ötən illə müqayisədə 96 nəfər çoxdur. 6 nəfər 600-dən yuxarı, 21 nəfər 500-dən yuxarı bal toplamışdır. 600-dən yuxarı bal toplayan şəhər 1 saylı, Qaradağlı, Evoğlu, Mamırlı, Səhləbad, Şıxarx 1 saylı tam orta məktəbin məzunlarıdır. 6 nəfər isə Naxçıvanski adına hərbi liseyə daxil olub.

Ali məktəblərə qəbulda Buruc, Qapanlı, Şıxarx kənd 1 saylı, Hacıqərvənd, şəhər 5 saylı, Köçərli kənd və şəhər 6 saylı tam orta məktəbləri fərqlənmişlər.

Mamırlı kənd tam orta məktəbin məzunu Murad Qarayev buraxılış imtahanlarında əla qiymət almış, Respublika Fənn Olimpiadasında qalib olduğuna görə Təhsil Nazirliyi tərəfindən "Qızıl medal"la təltif edilmişdir. Murad 610 bal toplayaraq Azərbaycan Dövlət İqtisad Universitetinə qəbul olunub.

Görüşdə Milli Məclisin deputatı Sahib Alıyev, şəhid polkovnik-leytenant, Vətən Müharibəsi Qəhrəmanı Anar Əliyevin atası Vaqif Əliyev, şəhər 2 saylı məktəb-liseyin direktoru Gülarə Əkbərova, Şıxarx kənd 1 saylı tam orta məktəbin direktoru Ramil Ağayev, tələbə adını qazanmış "Azərbaycan Bayrağı" ordenli qazi Elnur Salahov, şəhid Mehman Əliyevin qızı Ceyhunə Əliyeva, rayon üzrə ən yüksək bal toplayan Qaradağlı kənd tam orta məktəbinin məzunu Qədim Qədimli, "Qızıl medal" almış Mamırlı kənd tam orta məktəbinin məzunu Murad Qarayev çıxış edərək öz ürək sözlərini bildiriblər.

Tədbirdə yüksək nəticə göstərərək tələbə adını qazanan məzunlara fəxri fərman, pul mükafatı, qiymətli hədiyyələr, bu il birinci sinfə gedən 4 şəhid və 3 qazi övladına isə rayon icra hakimiyyəti, Heydər Əliyev Fondu və YAŞAT Fondu tərəfindən məktəbli ləvazimatları verilib.

Sonda rayon mədəniyyət mərkəzinin özfəaliyyət kollektivinin hazırladığı konsert proqramı təqdim edilib.

***Lazım QULİYEV,***
***"Azərbaycan"***

# Goranboyda yüksək balla ali məktəblərə daxil olan məzunlarla görüş keçirilmişdir





Goranboy Rayon İcra Hakimiyyətində bu il ali məktəblərə qəbul imtahanlarında ən yüksək bal toplayan gənclərlə və nailiyyətləri ilə fərqlənən qabaqcıl müəllimlərlə görüş keçirilmişdir.

Goranboy şəhər 1 nömrəli tam orta məktəbdə keçirilən görüşdə rayon icra hakimiyyətinin başçısı Məhərrəm Quliyev çıxış edərək müəllimləri və tələbə adını almış məzunları təbrik etmiş, Ümummilli Lider Heydər Əliyev tərəfindən əsası qoyulan müasir Azərbaycan təhsilinin bu gün Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva tərəfindən uğurla inkişaf etdirildiyini, yeni məktəb binalarının inşasının və ya əsaslı təmir-bərpa işlərinin aparıldığını, ümumtəhsil məktəblərinin maddi-texniki bazasının zənginləşdirilməsini, müəllim və tələbələrin sosial təminatlarının daha da yaxşılaşdırılması istiqamətlərində işlərin həyata keçirildiyini qeyd etmişdir.

Görüşdə o da vurğulanmışdır ki, son illər Birinci vitse-prezident Mehriban xanım Əliyevanın tapşırığı və Heydər Əliyev Fondunun təşəbbüsü ilə "Yeniləşən Azərbaycana yeni məktəb" layihəsi çərçivəsində Goranboyda da bir neçə məktəb binası tikilmiş, eləcə də əsaslı şəkildə təmir edilmişdir. Buna misal olaraq 700 şagird yerlik Goranboy şəhər 1 nömrəli məktəbi misal göstərmək olar. Hazırda 960 şagird yerlik Dəliməmmədli şəhər tam orta məktəbinin tikintisi, Qaraçinar və Tap kənd tam orta məktəblərinin əsaslı təmiri yekunlaşmaq üzrədir. Yaxın vaxtlarda isə Qızılhacılı qəsəbə 1 nömrəli və Səfikürd kənd tam orta məktəblərinin əsaslı təmiri nəzərdə tutulmuşdur.

Tədbirin sonunda 29 nəfər qabaqcıl müəllim, 3 nəfər 600-dən çox və 12 nəfər 500-dən çox bal toplayan gəncə, 227 əlaçı şagird və 1 nəfər 1-ci sinfə qədəm qoyan şəhid övladına müxtəlif qiymətli hədiyyələr təqdim olunmuşdur.

***S.ƏLİYEV,***
***"Azərbaycan"***

# Sosial şəbəkə terroru

Son illər dünyada geniş istifadə olunmağa başlayan sosial şəbəkələr müsbət tərəfləri ilə yanaşı, cəmiyyətə mənfi təsirlərini də göstərməkdədir. Ölkəmizdə də bəziləri tərəfindən sosial şəbəkələrin üstünlüklərindən sui-istifadə edildiyini görürük. Belələri öz sosial şəbəkə hesablarından müxtəlif şəxslərə böhtan atmaqla məşğuldurlar. Təəssüf ki, bunların arasında təhqirlərə də yol verilməsi cəmiyyət tərəfindən narahatlıqla qarşılanır, haqlı olaraq insanların narazılığına səbəb olur.



Şərəf və ləyaqəti alçaltma şəxsi nüfuzdan salan hərəkətlər kimi dəyərləndirilir. Böhtan isə yalan olduğunu bilə-bilə şəxsin şərəf və ləyaqətini ləkələyən, onu nüfuzdan salan məlumatların yayılmasıdır. Sosial şəbəkələrdə kütləvi nümayiş etdirilməklə təhqirə, yaxud böhtana məruz qalmış şəxs xüsusi ittiham qaydasında məhkəməyə müraciət etdikdə öncə kim tərəfindən təhqir edildiyini də bilməlidir.

## Hüquqi məsuliyyət

Bəs bu halda nüfuzuna zərər dəymiş, hüququ tapdalanmış, böhtana məruz qalmış şəxs nə etməlidir? Hansı hüquqi addımlar atıla bilər?

Bəzi hallarda sosial şəbəkələrdə qeydiyyatdan keçmiş şəxslər öz real ad və soyadlarını, digər anket məlumatlarını gizlədirlər - saxta istifadəçi adlarından, profil hesablarından istifadə etməklə sosial şəbəkələrdən yararlanırlar. Təbii ki, özözlüyündə bu halın mövcudluğu şəxs üçün hər hansı bir hüquqi məsuliyyət yaratmır. Lakin saxta profil adlarından istifadə edən şəxslər bir sıra hallarda anonim olduqları üçün cəzasız qalacaqlarını güman edərək digərlərini təhqir etməkdən və onlara böhtan atmaqdan çəkinmirlər. Odur ki, bu halların qarşısının alınması, dövlət tərəfindən insanların şərəf və ləyaqətinin müdafiəsi üçün saxta profil hesablarından istifadə edərək insanların şərəf və ləyaqətini alçaldan, onlara böhtan atan şəxslərin müəyyən edilərək cinayət məsuliyyətinə cəlb edilməsinin təmini məqsədilə Cinayət Məcəlləsinə 148-1-ci maddə əlavə edilib. Bu maddə ilə internet informasiya ehtiyatında saxta istifadəçi adlar, profil və ya hesablardan istifadə edərək kütləvi nümayiş etdirməklə böhtanatma və ya təhqiretmə cinayət məsuliyyəti müəyyənləşdirilir.

Şər-böhtan, təhqir, saxta məlumatlarla işgüzar nüfuzu, şəxsi həyatı zədələnmiş şəxslərin cəmiyyətdə ajiotaj, süni gərginlik yaradan, şayiə ilə manipulyasiya edənlərə qarşı hüquqi müstəvidə müraciət etməsi lazımdır. Beynəlxalq hüququn hamılıqla qəbul edilmiş norma və prinsiplərində olduğu kimi, Azərbaycan Konstitusiyasında da hər kəsin şərəf və ləyaqətini müdafiə etmək hüququ var, heç bir hal şəxsiyyətin alçaldılmasına əsas verə bilməz. Azərbayan Respublikasının Konstitusiyasının 46-cı maddəsində qeyd edildiyi kimi, hər kəsin öz şərəf və ləyaqətini müdafiə etmək hüququ var və şəxsiyyətin ləyaqəti dövlət tərəfindən mühafizə edilir. Cinayət Məcəlləsinin 19-cu fəslində qeyd edilmiş "Şəxsiyyətin azadlığı və ləyaqəti əleyhinə olan cinayətlər" bu konstitusion müddəanın təzahürlərindən biridir. Cinayət Məcəlləsinin 147-ci maddəsi böhtana, 148-ci maddəsi isə təhqirə görə məsuliyyəti nəzərdə tutur. Cinayət Məcəlləsinin 148-1-ci maddəsinə əsasən, internet informasiya ehtiyatında saxta istifadəçi adlar, profil və ya hesablardan istifadə edərək kütləvi nümayiş etdirməklə böhtanatma və ya təhqiretmə - 1.000 manatdan 2.000 manatadək miqdarda cərimə və ya 360 saatdan 480 saatadək müddətə ictimai işlər və ya 2 ilədək müddətə islah işləri və ya 1 ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır.

Saxta istifadəçi adlar, profil və ya hesablardan istifadə edərək kütləvi nümayiş etdirməklə böhtanatma və ya təhqiretmə cinayətini "təhqir" və "böhtan" cinayətlərindən fərqləndirən önəmli bir özəlliyi də bu cinayət üzrə cinayət təqibinin ictimai-xüsusi ittiham qaydasında həyata keçirilməsidir. Bu isə Cinayət-Prosessual Məcəlləsinin 37.5-ci maddəsində qeyd edilən hallardan biri olduqda cinayət təqibinin prokurorun təşəbbüsü ilə zərər çəkmiş şəxsin şikayəti olmadan da başlaya bilməsi deməkdir.

## Saxta profillər

Bir çox halda təhqir halları saxta profillər vasitəsilə həyata keçirilir. Saxta profil və səhifələr müxtəlif məqsədlər üçün yaradılır. Bütün sosial şəbəkə platformalarında isə saxta profil açmaq qadağandır. Əgər istifadəçi saxta ad və soyadlardan istifadə edərək profil hesabı yaradırsa, həmin şəxs dərhal müvafiq sosial şəbəkənin şərtlərini pozmuş olur. Amma bununla belə bu cür profillərə heç bir qadağa qoyulmur.

Hazırda sosial şəbəkələrdən cinayətlərin törədilməsi üçün getdikcə daha çox istifadə olunduğu müşahidə edilir. Bəzən kimsə kimisə sosial şəbəkədə şantaj edir, hədə-qorxu gəlir. Sosial şəbəkə cinayətlərinin qurbanları arasında susanlarla yanaşı, hüquq-mühafizə orqanlarına üz tutanlar da olur. Bu cinayətlər bir çox halda xanımlara qarşı törədilir. Belə məsələlərlə bağlı Daxili İşlər Nazirliyi dəfələrlə xəbərdarlıq və çağırış edib. Kimlərsə bu cür təzyiqə, təqibə məruz qalırsa, bununla bağlı hüquq-mühafizə orqanlarına müraciət etməlidir.

## Bəs saxta profili necə müəyyən etmək olar?

Sosial şəbəkələr gücləndikcə saxta profillər də artır. Bəzi istifadəçilər elə düşünürlər ki, virtual şəbəkə tam sərbəstdir, nə istəsə edər, başqasının profilini sındıra, saxta hesablar yarada bilər. Əslində isə bütün bunlar qanun pozuntusudur. Feysbuk qaydalarına və mövcud normalara görə, saxta profil və ya səhifələrin yaradılması yolverilməzdir və qanunsuzdur. Qaydalara görə, hər bir şəxs öz real adı altında qeydiyyatdan keçməlidir və özünə yalnız bir hesab aça bilər. Feysbuk səhifəsi yaradılırsa və orada da kiminsə adından müxtəlif informasiyalar yerləşdirilirsə, onun əlaqə vasitələri qeyd edilirsə, onun səhifəsinə müxtəlif müraciətlər başlayır. Ona qarşı hədə-qorxular, təhdidlər də ola bilər. Kiminsə saxta səhifəsini açmaq kiməsə zarafat kimi gələ bilər, kimsə hətta bunu pis niyyət olmadan da edə bilər, amma bu ağır nəticələr də verər.

"Saxta profil" dedikdə şəxsin özünə məxsus e-mail adresi ilə başqa adla qeydiyyatdan keçdiyi hesab başa düşülür. Mütəxəssislər deyirlər ki, adətən saxta hesab sahibi izləyicilərini artırmağa çalışırsa və əgər hesab əvvəllər başqasına məxsus idisə, həmin profil linkində adı görünəcək (əgər dəyişdirilməyibsə). Həmçinin saxta profilləri müəyyən etməyin digər yolu onların qondarma adlarla adlandırılmasıdır. Bəzən ad arxasında əsl adı açıqlanmayan hər hansı diqqətçəkən ad görürsünüzsə, profil linkinə baxmaqla onun adını və ya soyadını tapmaq şansınız var. Yoxlamalı olduğunuz başqa bir məqam profil şəklidir. Saxta hesab sahibi bu profilə müxtəlif insanların müxtəlif tipli şəkillərini yükləyir. Bu hesabın arxasında duran şəxs həmişə izləyicilərin sayını özü üçün istifadə etməyə çalışır. Saxta profil açan insanları elektron müşahidə vasitələri və İP adreslə tapmaq mümkündür.

Siyasətçilərin, sənət adamlarının, idmançıların, bir sözlə, məşhur insanların adına açılan "feyk" hesablara tez-tez rast gəlinir. Bu isə sözügedən insanların ictimai nüfuzuna xələl gətirməklə yanaşı, həm də cəmiyyəti çaşdırmağa yönəlir. Feysbukun miqyasını nəzərə alsaq, deyə bilərik ki, orada bu saxtalığın əhatəsi daha da genişdir.

## Effektiv və peşəkar mübarizə yoxdur

Milli Məclisin deputatı Fazil Mustafa deyir ki, bu istiqamətdə fəaliyyət göstərən ayrıca struktur yaradılmalıdır: "Buna qarşı effektiv və peşəkar mübarizə aparılmır. Peşəkar mübarizə olarsa, böhtan və təhqir bu dərəcədə sosial şəbəkədə baş alıb getməz. Bir sıra məqamlarda bunun daha çox şahidi oluruq. Ciddi mübarizə aparılmadığına görə heç kim şikayət də etmir. Hərə öz bildiyi metodlarla bunun qarşısını almağa çalışır. Kimsə təhqir edirsə, sən də məcbur olub onu təhqir edirsən. Amma bunu hüquqi yolla həll etmək lazımdır. Bu baxımdan bu məsələdə boşluqlar qalmaqdadır. Qanunvericilikdə bununla bağlı maddələr də salınıbdır. Konkret addımlar atılmalıdır. Nədənsə, bu məsələ üzərində geniş düşünülmür. Fikirləşirəm ki, buna xüsusi diqqət yetirilməlidir".

Mətbuat Şurasının sədr müavini Müşfiq Ələsgərli isə bildirir ki, təhqir və böhtan harda yayılmasından asılı olmayaraq, qanun pozuntusu sayılır: "İstənilən halda təhqir və böhtan yolverilməzdir. Sosial şəbəkə istifadəçiləri bilməlidirlər ki, burada paylaşılan fikirlər, açıqlamalar əgər başqalarının təhqir edilməsi və ya kiməsə böhtan atılması ilə müşayiət olunursa, hüquqi məsuliyyət yaradır. Bu, dünyanın hər yerində belədir. Təhqir və böhtan harada yayılmasından asılı olmayaraq, əgər kütləvi halda baş veribsə, hüquqi məsuliyyət doğurur. Azərbaycanda bu məsələnin hüquqi tənzimlənməsi üçün addımlar atılır, qanunlara əlavə və dəyişikliklər edilir. Artıq Cinayət Məcəlləsinin 147-148-ci maddələrinə dəyişikliklər edilib, bu maddələrə məxsusi olaraq sosial şəbəkələri ehtiva edən bir saylı əlavə təqdim olunub. Bu o deməkdir ki, sosial şəbəkə istifadəçiləri başqalarını təhqir edir, kiməsə böhtan atırlarsa, bu, hüquqi məsuliyyət yaradır".

## Antiazərbaycançı şəbəkələrin "fəaliyyəti"

Bir sıra hallarda təhqir və böhtanların yayıldığı sosial şəbəkə hesabları xarici ölkələrdə açılır ki, buna qarşı mübarizə aparmaq çətinləşir. Sosial şəbəkələrdə ölkədən kənarda olan şəxslərin təhqir və böhtanla daha çox məşğul olması müşahidə edilməkdədir. Bu gün sosial şəbəkələrdə təhqiri və böhtanı mübarizə metodu seçənlər, insanları dağıdıcılığa çağıranlar, şayiə və dezinformasiya yayanlar eyni zamanda həmin antiazərbaycançı mərkəzlərin buyruqlarını yerinə yetirənlərdir.

Əlbəttə ki, bu cür hallar ölkə ictimaiyyəti tərəfindən haqlı narazılığa səbəb olur. Çünki həmin şəxslər bu cür hərəkətləri ilə həm təşviş yaradır, həm də düşmən dəyirmanına su tökürlər. Bunu məqsədli şəkildə də həyata keçirirlər. Antiazərbaycançı şəbəkələrin bu işdə "fəaliyyəti" olur. Saxta profillər vasitəsilə bu gün Avropada oturub erməni lobbisinin ayırmış olduğu vəsaitlə xoş güzəran keçirənlər bunu edirlər. Hüquq-mühafizə orqanlarının belə şəxslərə qarşı ardıcıl tədbirlər görməsinə baxmayaraq, bəziləri çirkin əməllərindən əl çəkmirlər.

Baş Prokurorluq qanunun tələblərinə uyğun olaraq ilk növbədə media subyektlərinə və sosial şəbəkə istifadəçilərinə mütəmadi olaraq bununla bağlı xəbərdarlıqlar edib. Prokurorluğun son yaydığı məlumatların birində bildirilirdi ki, ölkədə ictimai-siyasi sabitliyin, insan və vətəndaş hüquq və azadlıqlarının pozulmasına yönələn halların qarşısının alınması üçün aidiyyəti şəxslər Baş Prokurorluğa dəvət olunmaqla barələrində prokuror təsir tədbirləri görülüb. Onlara "Prokurorluq haqqında" qanunun 22-ci maddəsinə əsasən, gələcəkdə bu kimi neqativ hallara yol verməmələri ilə bağlı xəbərdarlıq edilib.

Baş Prokurorluq media subyektlərinə və sosial şəbəkə istifadəçilərinə bəyan edib ki, dövlət qurumları ilə hər hansı dəqiqləşdirmə aparmadan yoxlanılmamış məlumatların yayılması yolverilməz olmaqla qanunvericiliklə nəzərdə tutulmuş məsuliyyətə səbəb olur.

Təbii ki, bir sıra sosial şəbəkə istifadəçilərinin Baş Prokurorluğa dəvət olunaraq onlara xəbərdarlıq edilməsi ölkə ictimaiyyəti tərəfindən haqlı olaraq düzgün addım kimi dəyərləndirilir və hesab edilir ki, bu cür addımlar, tədbirlər davamlı xarakter almalıdır.

***Elşən YƏHYAYEV,***
***"Azərbaycan"***

## Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti "Azərbaycan Metrologiya İnstitutu" PHŞ avtonəqliyyat vasitələrinin satın alınmasına dair

### *açıq tender elan edir*

Avtonəqliyyat vasitələrinin satın alınması.

Tender iştirakçıları "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq yuxarıda göstərilən satınalma predmeti üzrə öz tender təkliflərini dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə elektron formada təqdim etməlidirlər.

Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir:

- aşağı qiymət, yüksək keyfiyyət, podratçının bu sahədə texniki imkanları və səriştəsi.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar.

Görüləcək işlər satınalma müqaviləsinin qüvvəyə mindiyi gündən 90 bank günü ərzində icra edilməli və hazır məhsul satınalan təşkilata onun inzibati binasında təhvil verilməlidir.

Maraqlananlar 250 manat məbləğində iştirak haqqını ASAN Ödəniş vasitəsilə internet Portala köçürdükdən sonra Əsas şərtlər toplusunu elektron qaydada ala bilərlər.

Tenderdə iştirak haqqı heç bir halda geri qaytarılmır. Tenderdə iddiaçı kimi iştirak etmək istəyənlər Portalda tələb olunan sənədlər bölməsi üzrə aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *tender təklifi (təkliflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (tender təklifinin təminatının qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması, son bir il ərzində riskli vergi ödəyiciləri ilə qarşılıqlı əməliyyatlarının olmaması;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (2021-ci il üzrə);*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *satınalma müqaviləsinin icrasını təmin etmək üçün müvafiq sahədə peşəkarlığının, təcrübəsinin, texniki imkanlarının, işçi qüvvəsinin, idarəetmə səriştəsinin, etibarlığının, rəsmi distribüterliyinin, texniki servis xidmətinin mövcudluğu;*
- *satınalma müqaviləsini bağlamaq səlahiyyətinin olmasına dair məlumat;*
- *mikro, kiçik və orta sahibkarlıq meyarlarına uyğun olması barədə məlumat;*
- *öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olmasına dair məlumat;*
- *müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması barədə məlumat;*
- *satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi barədə məlumat.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır.

İddiaçılar öz təkliflərini Əsas şərtlər toplusunda göstərilən müddəalara uyğun hazırlamalı, iddiaçının ixtisas göstəriciləri "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun 6.2-ci maddəsinin tələblərinə uyğun olmalıdır. İxtisas göstəriciləri qeyd edilən tələblərə uyğun olmayan malgöndərənlərin təklifləri tenderdən kənarlaşdırılacaqdır.

Əlaqələndirici şəxs kimi satınalma mütəxəssisi Aynur Hacızadə təyin edilir.

Tel: (012 514 96 05/06, dax.119); e-mail: aynur.hacizade@metrology.gov.az

İddiaçıların tenderlə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlana bilər.

Müsabiqə **13.09.2022-ci il saat 12:00-da** başlayır. İddiaçılar tələb olunan sənədləri **03.10.2022-ci il saat 13:30-dək,** təklifləri **11.10.2022-ci il saat 13:00-dək** Portal vasitəsilə təqdim etməlidirlər.

Təklif zərfləri 12 oktyabr 2022-ci il saat 13:30-da açılacaqdır.

İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

***Tender komissiyası***

*Təkrar*

## Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlil olmuş şəxslərə və şəhid ailələrinə Göygöl, Salyan, Lənkəran rayonlarında və Mingəçevir, Şirvan şəhərlərində 1, 2 və 3 otaqlı olmaqla ümumilikdə 206 ədəd mənzilin satın alınması ilə əlaqədar

### *açıq tender elan edir*

Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlil olmuş şəxslərə və şəhid ailələrinə Göygöl, Salyan, Lənkəran rayonlarında və Mingəçevir, Şirvan şəhərlərində 1, 2 və 3 otaqlı olmaqla ümumilikdə 206 ədəd mənzilin satın alınması.

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş Əsas şərtlər toplusunu Bakı şəhəri, Yasamal rayonu, Salatın Əsgərova küçəsi, 85 (Telefon: (012) 596-44-09) ünvanından ala bilərlər.

İştirak haqqı : Nəzərdə tutulmur.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

1. *İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.*
2. *Tender təklifi (təkliflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır).*
3. *Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (tender təklifinin təminatının qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır).*
4. *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması (sənədin əsli skan edilməli və PDF formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial qaydada təsdiq edilməsi mütləqdir); 01.08.2022-ci il tarixdən sonra alınan arayış qəbul ediləcəkdir.*
5. *İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti ( 2021-ci il üzrə).*
6. *İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı. Əgər sənəd elektron formada alınıbsa, notarial qaydada təsdiq edilməsi mütləqdir, yalnız 01.08.2021-ci il tarixdən sonra alınan arayış qəbul ediləcəkdir.*
7. *Satınalma müqaviləsinin icrasını təmin etmək üçün müvafiq sahədə peşəkarlığının, təcrübəsinin, texniki imkanlarının, işçi qüvvəsinin, idarəetmə səriştəsinin, etibarlığının olması (müvafiq təsdiqedici sənədlər təqdim edilməlidir).*
8. Satınalma müqaviləsini bağlamaq səlahiyyətinin olması.
9. *Öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması.*
10. *Müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması.*
11. *Satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi ("ASAN xidmət" mərkəzlərindən və ya DİN tərəfindən təqdim edilən məhkumluq barədə arayış).*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və tender təklifinin təminatı istisna olmaqla) 05 oktyabr 2022-ci il saat 15:00-dək, tender təklifi və tender təklifinin təminatını isə möhürlənmiş ikiqat zərfdə 13 oktyabr 2022-ci il saat 15:00-dək Bakı şəhəri, Salatın Əsgərova küçəsi, 85 ünvanına təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır. İddiaçıların təklifləri 14 oktyabr 2022-ci il saat 15:00-da Bakı şəhəri, Salatın Əsgərova küçəsi, 85 ünvanında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

# "Azərişıq" ASC ölkənin bütün regionlarında yenidənqurma işlərini davam etdirir

"Azərişıq" ASC-nin Mətbuat xidmətindən verilən məlumata görə, Quba rayonunun 4 kəndinin elektrik şəbəkəsi yenidən qurulub, 2 kənddində işlər davam edir.

Prezident İlham Əliyevin müvafiq tapşırıqlarına əsasən, "Azərişıq" ASC tərəfindən həyata keçirilən investisiya layihəsi çərçivəsində Qubanın Tülər düzü və Tülər kəndlərinin elektrik şəbəkəsi yenidən qurulur.

Yenidənqurma işləri çərçivəsində Tülər düzü və Tülər kəndlərində ümumilikdə 7 ədəd komplekt transformator məntəqəsi quraşdırılacaq. 6 kilometrə yaxın 10 kV-luq, 16 kilometrdən çox 0,4 kV-luq elektrik xətləri yenilənəcək. Nəticədə 1000-ə yaxın sakin keyfiyyətli elektrik enerjisi ilə təmin olunacaq.

Qubanın 4 kəndində - Aşağı Tüləkəran, Yuxarı Tüləkəran, Suxtakələ və Əski-İqriq kəndlərində isə işlər yekunlaşıb. Artıq yeninlənmiş şəbəkə abonentləri keyfiyyətli və fasiləsiz elektrik enerjisi ilə təmin edir.

1000-dən artıq sakini olan 4 kənddə ümumilikdə 7 ədəd komplekt transformator məntəqəsi quraşdırılıb. 7 kilometrə yaxın 10 kV-luq, 14 kilometrdən artıq 0,4 kV-luq elektrik xətti yenilənib. Abonentlərin sayğacları dəyişdirilib.

Xatırladaq ki, investisiya layihəsi bütün regionlarda 100-dən çox kəndi əhatə edir. Mərhələli şəkildə kəndlərin, xüsusilə ucqar ərazilərin elektrik şəbəkəsi tam yenilənir.

# "İqlim fəlakəti"

## BMT-nin Baş katibi Antonio Quterreş beynəlxalq ictimaiyyəti Pakistana humanitar yardım göndərməyə çağırıb

BMT-nin Baş katibi Antonio Quterreş Pakistanda baş verən daşqınları "iqlim qırğını" adlandırıb. Zərərçəkən bölgələrə səfəri zamanı o, beynəlxalq ictimaiyyəti İslamabada humanitar yardım göndərməyə çağırıb.







Pakistan hakimiyyəti daha əvvəl fəlakət bölgəsində olan, evlərini itirən, işıq, su və qidadan məhrum olan insanların xilas edilməsi üçün dünya birliyindən kredit istəyib.

Quterreşin sözlərinə görə, ölkə görünməmiş sınaqlar qarşısındadır. O, Pakistandakı təbii fəlakətlə bağlı deyib: "Mən dünyada çoxlu humanitar fəlakətlər müşahidə etmişəm, lakin bu miqyasda görməmişəm. Bu gün gördüklərimi sözlə ifadə etmək mümkün deyil: ölkəmin, Portuqaliyanın ümumi sahəsinin üç qatını təşkil edən ərazini su basmışdır".

İyunun ortalarından bəri Pakistanda rekord musson yağışlarının törətdiyi daşqınlar, sel və torpaq sürüşmələri 1400 nəfərin həyatına son qoyub. Özü də bu, yalnız ilkin məlumatdır. Bundan əlavə, 12 mindən çox yaralı var. 1 milyon 700 mindən çox ev zədələnmiş və ya dağılmış, yüzlərlə kilometr yol su altında qalmış, əkin və mal-qara tələf olmuşdur. Təxminən 3,5 milyon uşaq təhsil ala bilmir. Yüzlərlə tədris müəssisəsində, o cümlədən ən azı 61 qaçqın məktəbində dərslər dayandırılıb.

Hökumətin ilkin hesablamalarına görə, təbii fəlakətdən dəyən ümumi zərər 10 milyard ABŞ dollarını keçəcək.

Zərər çəkmiş ərazilərin sakinlərinə təcili yardım üçün İslamabad əvvəlcə 160 milyon dollar kredit istəyib. Son məlumata əsasən, Pakistanın 30 milyard dollar məbləğində yardıma ehtiyacı var. Bu barədə BMT-nin Baş katibi Antonio Quterreş tarixinin ən güclü daşqınlarına məruz qalan Pakistana səfər edərkən bildirib. BMT rəhbərinin dediyinə görə, hazırda Pakistan iqlim dəyişikliyi ilə mübarizədə ön sıralardadır.

Sind əyalətində BMT-nin Baş katibi yerli sakinlərlə görüşüb. Onların bir çoxu yaxınlarını, evlərini və sahib olduqları hər şeyi itirib. İndi onlar çadırlarda qalırlar və həyatları beynəlxalq yardımdan asılıdır.

"Mən bütün dünyadan Pakistana ehtiyac duyulan bütün dəstəyi verməsini xahiş etmək üçün buradayam", - deyə Quterreş zərər çəkmiş ailələri əmin edib.

BMT rəhbəri "insan əzabının ölçülməz dərinliyindən" dəhşətə gəlsə də, o, "həm xilasetmə xidmətləri əməkdaşları, həm də qonşularına köməyə gəlmiş adi adamlar tərəfindən misilsiz insan dözümlülüyünün və görünməmiş qəhrəmanlığının" şahidi olduğunu vurğulayıb. Quterreş Pakistan hakimiyyətinin mülki və hərbi, milli və regional səviyyədə fövqəladə vəziyyətə reaksiya vermək üçün göstərdiyi böyük səyləri lazımınca qiymətləndirib və təşəkkürünü bildirib: "Mən həmçinin vətəndaş cəmiyyətinə, humanitar təşkilatlara və köməyə tələsən BMT-dəki həmkarlarıma təşəkkür etmək istəyirəm. Bu çətin zamanda Pakistana vəsait ayıran bütün maliyyə donorlarına da minnətdaram".

Baş katib xatırladıb ki, musson yağışları kimi ekstremal iqlim hadisələrinin səbəblərindən biri insan fəaliyyəti, xüsusilə də planetimizin temperaturunun artmasına səbəb olan mədən yanacaqların alovlandırılmasıdır.

"G20 ölkələri cari emissiyaların 80 faizinə cavabdehdir" deyən Antonio Quterreş əlavə edib ki, ən zəngin ölkələrin inkişaf etməkdə olan ölkələrə "bu kimi fəlakətlərdən qurtulmalarına və təəssüf ki, gələcəkdə təkrarlanacaq iqlim sarsıntılarına uyğunlaşmaq və davamlılıq yaratmağa" kömək etmək kimi "mənəvi məsuliyyəti" var.

Pakistanda görünməmiş daşqınlar əhalinin sağlamlığı üçün də ciddi risklər yaradır. Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) xəbərdarlıq edib ki, ölkə malyariya, denge qızdırması və digər ağır yoluxucu xəstəliklərin daha da yayılması ilə təhlükə altındadır.

Eyni zamanda ÜST-ün məlumatına görə, milyonlarla pakistanlı tibbi xidmət və müalicədən məhrumdur.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

# Media orqanı rəhbərinin külli miqdarda rüşvət alması ilə bağlı cinayət işi başlanıb

Mediada yayımlanmış məlumatlar və cinayət prosessual qanunvericiliyinin tələblərinə uyğun olaraq daxil olmuş müraciət əsasında aparılmış araşdırma zamanı vəzifəli şəxsin külli miqdarda rüşvət almasına əsaslı şübhələr müəyyən edildiyindən fakta görə Baş Prokurorluğun İstintaq İdarəsində Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 311.3.3-cü (külli miqdarda rüşvət alma) maddəsi ilə cinayət işi başlanaraq istintaq aparılır.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, istintaqla vəzifəli şəxs olan "Xural Yayınları" Məhdud Məsuliyyətli Cəmiyyətinin baş direktoru Zeynalov Əvəz Tapdıq oğlunun "Baku Steel Company" şirkətinin müşahidə şurasının sabiq sədri, hazırda Bakı Ağır Cinayətlər Məhkəməsində təqsirləndirildiyi cinayət işi üzrə barəsində məhkəmə baxışı davam etdirilən Məmmədov Rasim Hikmət oğlu haqqında təhqiredici məlumatlar yaymamaq, eləcə də barəsində müsbət imic formalaşdırmaq üçün müvafiq verilişlər hazırlamağı vəd edərək 2022-ci ilin avqust ayında onun müdafiəçisi Sadıqov Elçin Əli oğlunun vasitəçiliyi ilə Rasim Məmmədovun yaxınlarından 20 min manat rüşvət qismində almasına əsaslı şübhələr müəyyən edilib.

Toplanmış ilkin sübutlara əsasən, Zeynalov Əvəz Tapdıq oğlu Cinayət Məcəlləsinin 311.3.3-cü və Sadıqov Elçin Əli oğlu Cinayət Məcəlləsinin 32.5, 311.3.3-cü (külli miqdarda rüşvət almaqda köməkçilik) maddəsi ilə təqsirləndirilən şəxs qismində cəlb edilməklə onlara həmin maddə ilə nəzərdə tutulmuş ittiham elan edilib və barələrində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib.

Cinayət işi üzrə hüquqi əhəmiyyət kəsb edən bütün halların tam, hərtərəfli və obyektiv araşdırılması istiqamətində zəruri istintaq-əməliyyat tədbirləri davam etdirilir.

Media nümayəndələri, habelə sosial şəbəkə istifadəçilərinin nəzərinə çatdırılır ki, istintaq olunan cinayət işi ilə bağlı rəsmi mənbələrlə dəqiqləşdirilməmiş məlumatların yayılması qadağandır və qanunvericiliklə müəyyən edilmiş məsuliyyətə səbəb olur.

İstintaqın gedişatı barədə ictimaiyyətə əlavə məlumat veriləcək.

# 120 ədəd partlamamış hərbi sursat aşkarlanaraq zərərsizləşdirilib

Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) işğaldan azad edilmiş ərazilərdə icra olunan minatəmizləmə əməliyyatları barədə həftəlik məlumatı açıqlayıb.

ANAMA-dan AZƏRTAC-a bildiriblər ki, sentyabrın 5-dən 10-dək Tərtər, Ağdam, Şuşa, Xocavənd, Füzuli, Qubadlı, Cəbrayıl və Zəngilan rayonlarının ərazilərində aparılmış minatəmizləmə əməliyyatları zamanı piyada əleyhinə 49, tank əleyhinə 20 mina və 120 ədəd partlamamış hərbi sursat aşkarlanaraq zərərsizləşdirilib.

Həftə ərzində 457 hektar ərazi mina və partlamamış hərbi sursatdan təmizlənib.


## «AZƏRBAYCAN» qəzetinin reklam xidməti

**"ALİTURAN TİKİNTİ" MMC-yə məxsus lisenziya itdiyi üçün etibarsız sayılır.**

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Prokurorluğunun rəhbərliyi və kollektivi Bakı Şəhər Prokurorluğunun Daxili işlər orqanlarının istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsinin rəisi Pərvin Quliyevə anası

**RAYA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Gəncə Apellyasiya Məhkəməsinin kollektivi Ali Məhkəmənin Cinayət Kollegiyasının sədri Hafiz Nəsibova atası

**QƏNBƏR NƏSİBOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Qafqaz Müsəlmanları İdarəsinin sədri, Şeyxülislam Allahşükür Paşazadə və Milli Məclisin deputatı Cavanşir Paşazadə

**SƏADƏT TAĞIYEVİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Sumqayıt Apellyasiya Məhkəməsinin kollektivi Azərbaycan Respublikası Ali Məhkəməsinin Cinayət Kollegiyasının sədri Hafiz Nəsibova atası

**QƏNBƏR NƏSİBOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidmətinin rəhbərliyi və kollektivi xidmətin aparatının Əməyin mühafizəsinə nəzarət şöbəsinin baş məsləhətçi-baş əmək müfəttişi

**XALİD ƏHMƏDAĞA OĞLU AĞAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.



**BAŞ REDAKTOR**

**Bəxtiyar SADIQOV**

**Ünvan**



*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə*

***e-mail:***
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

**Telefonlar**

| | |
|---|---|
| Qəbul otağı | - 539-68-71, |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39, |
| Məsul katib | - 539-43-23, |
| Məsul katib müavinləri | - 539-44-91, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, |
| Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Kompüter mərkəzi | - 538-20-87, |
| Mühasibatlıq | - 539-59-33 |

**Qeydiyyat nömrəsi 1**

**"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-də çap edilmişdir**

**Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir**

**Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır**

***Gündəlik qəzet***

**Tiraj 6473**
**Sifariş 2589**
**Qiyməti 40 qəpik**